*Allah İman gətirən və saleh əməl sahiblərinə bağışlanmaq və böyük mükafat vədini vermişdir.*
*("Maidə" surəsi, 9-cu ayə).*

# İMAN

*"İman" mədəni, maarif müəssisəsinin nəşri*

*Avqust 2012 (Ramazan 1433) 05 (73)*

رَبِّ إِنِّي مَغْلُوبٌ فَانْتَصِرْ

***İlahi mən məğlub oldum, Özün mənə kömək ol!***



# Kimlər Aldandı..???

*Hələ bir izah et gözəl dost. Bu dünyada kimlər aldandı..?*
*- Cəhənnəmi hesaba qatmayan dindar aldandı..!*
*(Zümər, 47)*

*Söylə mənə can dostum, kimlər aldandı..?*
*- Cənnətdəki yerini hazır bilən hər kəs aldandı..!*
*(Nisa, 123)*

*Söylə, başqa kimlər aldandı..?*
*- Ölüm yoxmuş kimi yaşayan dünyapərəst aldandı..!*
*(Nisa, 78)*

*Gözəl dost! Daha kimlər aldandı..?*
*- Əməlinə güvənən abid (çox ibadət edən) aldandı..!*

*Başqa kimlər aldandı..?*
*- Saleh əməl işləyirəm sanan riyakar (ikiüzlü) aldandı..!*

*İzah et hakim! Sonra kim aldandı..?*
*- Aləmə nəsihət verib özünü unudan aldandı..!*
*(Bəqərə, 44)*

*Başqa varmı..? Daha kim aldandı..?*
*- Rəbbini buraxıb, nəfsinə qulluq edən aldandı..!*
*(Furqan, 43-44)*

*Hələ bir izah et sevimli dost! Başqa kimlər aldandı..?*
*- ALLAHın Rəhmətinə güvənib özünü təhlükəyə salan fasiq (günahkar) aldandı..!*
*(Əraf, 98)*

*Hələ davam et, başqa kimlər aldandı..?*
*- Getdiyi yolun əyriliyindən şübhə etməyən qafil aldandı..!*
*(Kəhf, 104)*

*De mənə! Daha kimlər aldandı..?*
*- Özünü xidmətdə bilib, ibadətə tükünü belə tərpətməyənlər aldandı..!*
*(Nisa, 95)*

*Söylə.. Söylə, ta ki hər kəs duysun səni..! Hələ, hələ kimlər aldandı..?*
*- Namazı olmayan aldandı..!*
*(Müddəsir, 39-43)*

*Kim özünü yandırdı, kimlər aldandı..?*
*- "..Mən bundan sonra xilas ola bilmərəm.." deyən məyus (ümidsiz) aldandı..!*
*(Zümər, 53-54)*

*Ey gözəl xeyirxah! İzah et kim aldandı..?*
*- "..ALLAH diləməsəydi günahkar olmazdım.." deyən, qədəri yalan sayan aldandı..!*
*(Zümər, 56-57)*

*Ey bəndə! De mənə daha kimlər aldandı..?*
*- Kiçik günahlara göz yumanlar aldandı..!*

*İzah et..! İzah et..! Daha kimlər aldandı..?*
*- "..İbadət etməməyimə baxma, ürəyim təmizdi.." deyən, saleh əməlsiz aldandı..!*
*(Əsr, 1-3)*

*Başqa kim..? Daha kim aldandı..?*
*- "..Quran oxumaq, Namaz qılmaq, Oruc tutmaq dövrü keçdi artıq,*
*Bu dövrdə hər şey puldur..!" deyən, zəngin aldandı!*
*(Təkasur)*

*Hələ bəhs et..!!! Başqa kim aldandı?*

*- Yadlardan örtünməyən qadınlar aldandı,*
*- Şəhvətinə uyan cahillər aldandı,*
*- Faiz yeyən iblislər aldandı,*
*- Vaxtını boş-boş keçirən qafillər aldandı,*
*- Axirətini unudanlar aldandı,*
*- .!Hələ gəncəm.." deyənlər aldandı,*
*- Fani olduğunu unudanlar aldandı,*
*- Başqalarının hicab geyinib günah işlədiyini görən, özünün hicab geyinməsə də xeyir üstə olduğunu sananlar aldandı..!*
*- Başqasının namaz qılıb günah işlədiyini görən, özünün namaz qılmasa da xeyir üstə olduğunu sananlar aldandı..!*
*- Axirətdə, hərənin özünə cavabdeh olduğunu unudanlar aldandı..!*
*- Zamanın durmadığını, unudanlar aldandı..!*
*- Əcəlin vaxtsız gəldiyini unudanlar aldandı..!*
*- Quranı bir dəfə də olsun oxumayanlar aldandı..!*
*- Haqqa göz yumanlar aldandı..!*

*Daha kimlər aldandı..?*
*- Bunu oxuyub, nəticə çıxarmayanlar aldandı..!*

# Ramazan və tövbə

## Ölüm anında tövbən qəbul olunmayacaq!

### *Həqiqətənmi Allah-Təala Ramazanda oruc tutmağı buyurub?*

***Orucluq Allahın mərhəmətilə bir daha bizlərə nəsib oldu. Bu fürsəti bəxş edən Allaha şükürlər edərək Ramazan ayının gəlişini müjdələyirik… Oruc tutmaq bəşər övladının ən qədim ibadətlərindəndir. Quran da oruc tutmağı vacib buyurur: «Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!"» (Surə 2, ayə 183). Orucluq ayı kimi Allah məhz Ramazan ayını təsbit edib. Nə üçün məhz Ramazan ayı?..***

Qurani-Kərim məhz Ramazan ayında nazil olub. Quran – insanlara İlahi mənəviyyat qanunlarını açıqlayan, həm ayrı-ayrılıqda hər bir şəxsə, həm də bütövlükdə cəmiyyətə, bəşəriyyətə səadət yolunu bəyan edən Allah kəlamıdır. Allah bu mükəmməl kitabla insanları həm dünya, həm də axirət səadətinə səsləyir! Bu İlahi kitabın belə bir misilsiz əhəmiyyətə malik olmasından irəli gəlir ki, Allah onun nazil olduğu ayda oruc tutmağı buyurur: «İnsanlara doğru yol göstərən, bu yolu açıq dəlillərilə aydınlaşdıran və haqqı batildən ayıran Quran Ramazan ayında nazil edilmişdir. Ramazan ayına yetişən şəxslər bu ay oruc tutmalıdırlar…"» (Surə 2; ayə185).

**İnsan, neçə yaşda olur-olsun, hər bir xasiyyətini dəyişə bilər**

Əlbəttə ki, oruc tutan insan ilk növbədə Allaha ibadət edərək, mənən saflaşır, ruhən yeniləşir. Bu ayın hər bir günü sanki onu Allaha aparan bir pillə olur və bu 30 gündə keçdiyi hər bir pillə ilə o, özünü Allaha daha da yaxın hiss edir. Son pillələr onun üçün əsl mənəvi kulminasiya olur və bu ayda səmimi qəlbdən oruc tutmuş hər bir şəxs bütün çirkinliklərdən qurtulub, tamamilə yeni – pak, mənən saf bir insana çevrilir. Allaha yaxın olan, Onunla dost olan bir insana…

Nəfsani istəklərin insan ruhuna hakim olması çox təhlükəlidir. Bu hisslər adamı əsir edir, onu rəzil işlər görməyə sövq edir. İnsan oruc tutmaqla öz nəfsi ilə mübarizə etməli olur və hissləri müqabilində müqavimət göstərir. Başqa vaxtlarda halal olan yemək, içmək və bu kimi şeylərdən də çəkinməklə insan öz iradəsini və qətiyyətliliyini haram işlər müqabilində elə möhkəmləndirir ki, günah etməkdən çəkinmək onun üçün artıq bir adətə çevrilir. Beləliklə, orucluq ayı hər bir insan üçün mənəvi fürsətlər yaradır. Bəs nə edək ki, bu fürsəti qaçırmayaq? Barəsində danışdığımız mənəvi fürsətlərin qapısı - bir AN dayanıb, bizi Allahdan uzaqlaşdıran hər bir şeyə «yox!»" deyib, Allaha qayıtmaqla, Ona səmimi qəlbdən sığınmaqla açılır. Bu qapını açmağa isə hər birimizin imkanı var! Niyə bu ana sahib çıxmayaq ki?..

**Hələ ki, ölüm saatın yetişməyib, tövbə et!**

İnsanın günahlarını anlayaraq tövbə etməyin vacibliyini dərk etməsi elə bir andır ki, biz yeni bir güclə və tamamilə fərqli şəkildə özümüz və həyatımız barədə düşünməyə başlayırıq. Uca Allahın bizə verdiyi həyat və bu həyatı hansı hala saldığımız haqda düşünübdaşınırıq. Bu, daxili rahatlığı əldə etməyə və beləliklə də bizi səadətdən məhrum edən səhvlərimizi anlamaq və düzəltmək məqsədi ilə əməllərimizin yenidən qiymətləndirilməsidir. Əslində, dəfələrlə, dönə-dönə

bu qiymətləndirməni aparmaq çox zəruridir. Amma Ramazan bunun üçün ən gözəl fürsətdir! Tövbə edib, Allahdan bağışlanmamızı diləyək, Ona sığınaq və yeniləşək! «Rəbbinizdən bağışlanmağınızı diləyin. Çünki O, (tövbə edən bəndəsinin günahlarını) çox bağışlayandır!»" (Surə 71, ayə 10).

Bir çoxları adətən bu işi ölüm saatına, son xəstəliyinə, o ana saxlayır ki, artıq bu fani dünyadakı həyatlarının sona çatdığını aşkar edirlər. Və məhz həmin an, qorxu və ölümlə üz-üzə qaldıqda, biz qəfildən həyatımıza, Allaha qarşı ciddiləşirik, səhvlərimizi anlamağa" başlayırıq. Amma təəssüf, məlum olur ki, çox-çox gecikmişik və ölüm ayağındakı tövbə özünə heç cür rahatlıq tapa bilməyən iç dünyamızı düzəldə, sağalda bilməz. Çünki artıq bizə ayrılan ömür payını yaşamışıq və səhvlərimizi düzəltməyə sadəcə vaxt yoxdur: «Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: «Mən indi tövbə etdim" - deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq!»" (Surə 4, ayə 18).

### Elə yaşa ki, həyatla vidalaşdıqda səhvlərini düzəltmək imkanını boşa verdiyin üçün üzülməyəsən

Çoxları barəsində danışdığımız HƏQİQƏT ANına lazımi dəyər vermir. Hərçənd bu ANın sayəsində həyatımızı tamamilə dəyişə bilərik. Çünki məhz bu AN bizə ayaq saxlamaq, hesab çəkmək, səadətə qovuşmağa mane olan çirkinliklər və sapmalarımızdan azad olmağa fürsət verir. Nə qədər ki, gec deyil və yaxşılıq etmək iqtidarındayıq - hər şeyi yenidən, Allahın buyurduğu kimi başlamağa məhz bu AN imkan yaradır… Sabah, birigün, hətta bir neçə dəqiqə sonra bizi nə gözlədiyini bilmirik! Bəs elə isə, nəyi gözləyirik, niyə indi, bax elə bu dəqiqə yox? Qarşıda bu ANı yaxalamaq üçün çoxlu şansımız olacağına təminat varmı? Bunu vaxt itirmədən və belə qızıl şansı əldən vermədən etməyə nə mane olur? Axı hamımızı başqa bir an da gözləməkdədir - ÖLÜM ANI! «Hər bir kəs ölümü dadacaqdır»." (Surə 3, ayə 185).



Tövbə anından fərqli, ölüm anı qəfildən, bizə tövbə etməyə aman vermədən gələ bilər. Bu mənada ölüm bizə dəyərli, Allahın ipindən tutaraq ömür sürməyə tələsməyi xatırladır. Bu səbəbdən bir çox hədislərdə ölümü, əbədi olmadığımızı daim xatırlamaq tövsiyə olunur. Unutmamalıyıq ki, hər saat, hər saniyə, hətta hər an Allahın böyük lütfü və əlbəttə ki, tövbə etmək üçün əvəzsiz bir fürsətdir. Ölümü xatırlamaq o anlama gəlməməlidir ki, insan bədbin notlara köklənib panika içində bütün günü öləcəyi barədə düşünməli və onun baş verməsindən dəhşətə gəlməlidir. Əksinə, bu, dünya həyatının mahiyyətini anlamaq üçün bizə gözəl bir şans verir və sağ olduğumuz müddətdə həyatımızı layiqli yaşamalı olduğumuzu xatırladır. Elə yaşa ki, həyatla vidalaşdıqda səhvlərini düzəltmək imkanını boşa verdiyin üçün üzülməyəsən…

### Başqalarının uğurlarına paxıllıq edirdinmi?

Ölüm faktı özü-özlüyündə qorxulu deyil. Axı ölüm - bu dünyadan o biri, əbədi dünyaya köç anıdır. Lakin ölümdən sonra insanı sorğu-sual gözləyir! Hər birimiz bu dünyada etdiklərimizə görə gec, ya tez, Allah qarşısında cavab verməli olacağıq: «O saat (qiyamət günü) mütləq gələcəkdir… və Allah qəbirlərdə olanları diriltdəcəkdir!"» (Surə 22, ayə 7). Qiyamət günü Allah qarşısında hansı əməllərlə dayanacayıq? Valideynlərimizin xidmətində dayanırdıqmı? İnsanlara xoş sözlər deyirdikmi? Yetimlərlə tikəmizlə bölüşürdükmü? İnsanları xeyir əməllərə dəvət edirdikmi, günahlardan çəkindirirdikmi? Başqalarının uğurlarına paxıllıq edirdikmi? Ailəmizə, yaxınlarımıza, xalqımıza, ümumiyyətlə, bəşəriyyətə qarşı olan insanlıq borcumuzu lazımınca yerinə yetirirdikmi? Əxlaqsızlıqdan, alkoqolizm və narkomaniyadan çəkinirdikmi? Başqalarına aid olanı mənimsəyirdikmi? Allahın buyruqlarına əməl edirdikmi? Günahlarımıza görə Ondan üzr istəyirdikmi?..

Vaxt itirmədən yaxşılıqlar etməliyik ki, Allahın razılığını qazanaq. «...Özünüz üçün öncə (dünyada) nə yaxşı iş görsəniz, Allah dərgahında onun daha xeyirli və daha böyük mükafatı olduğunu görəcəksiniz.

Allahdan bağışlanmağınızı diləyin. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!"» (Surə 73, ayə 20). Yalnız bu dünyada Axirət üçün özümüzə nemətlər hazırlamaq imkanı verilir. Ölüm anı bu imkandan bizi məhrum edəcək. Və yalnız o zaman çoxları anlayacaqlar ki, sən demə, çox böyük bir fürsəti əldən veriblər: «…Ey Rəbbimiz! Bizi buradan çıxart ki, saleh əməllər edək. O əməlləri yox ki (dünyada) edirik!"» (Onlara belə deyəcəyik:) «Məgər orada (dünya həyatında) sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edə biləcəyi qədər ömür vermədikmi?! Hələ sizə qorxudan peyğəmbər də gəlmişdi. Dadın (cəhənnəm əzabını)! Zalımların imdadına çatan olmaz!"» (Surə 35, ayə 37).




### «Mən tövbələri qəbul edənəm, mərhəmətliyəm!»

Sağ və salamatıq! Həyatda ikən HƏQİQƏTANından faydalanmaq fürsətini hələ əldən verməmişik. Elə ki, günahlarımızı anladıq, əməllərimizin çirkinliyini gördük, vaxt itirmədən tövbə edib Allahdan bağışlanmağımızı diləməliyik. «Allah yanında yalnız o kəslərin tövbəsi qəbul olunar ki, onlar nadanlıq ucundan pis bir iş gördükdən sonra dərhal tövbə edərlər. Allah belələrinin tövbəsini qəbul edir!.."» (Surə 4, ayə 17).

Rəbbimiz həmçinin buyurur: «O təqvalılar ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb (tövbə edərək) günahlarının bağışlanmasını istəyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Və onlar etdiklərini (gördükləri işin pis olduğunu) bildikdə (tövbədən sonra) bir daha ona qayıtmazlar"» (Surə 3, ayə 135). Allahın digər buyruğu isə belədir: «Mən ancaq tövbə edənləri, yaxşı işlər görənləri və (buyurduqlarımı) bəlli edənləri əfv edərəm. Mən tövbələri qəbul edənəm, mərhəmətliyəm!»" (Surə 2, ayə 160).

### Tövbə etməyin qaydası

Budur, həmin AN yetişdi! Peşimanıq. Biz tövbə haqda düşünürük və əməllərimizə görə əzab çəkir, qaranlıq keçmişimizə görə kədərlənirik. Bu keçmiş nə Allaha, nə özümüzə layiq deyil. Lakin bu, tövbənin yalnız bir tərəfidir. Bu dəhşətli mənzərəni dərk edərək biz bütün qəlbimizlə, düşünülmüş şəkildə ondan üz çevirir və Allaha sığınırıq, qaranlıq keçmişimizdən imtina edib zülmətdən işığa addımlayırıq. Və bu İlahi nur qəlbimizi tamamilə işıqlandırır. Günahlarımıza görə, ən ali vəzifəmiz olan insanlığımıza, bəndəçiliyimizə xəyanət etdiyimizə görə qəlbimizi dəhşətli ağrı və xəcalət bürüyür. Allahın bizi görmək istədiyindən nə dərəcədə fərqləndiyimizi anlamağa başlayırıq. Əslində bu, yeni həyata başlamaq üçün bir təkan olmalıdır. Keçmişimizə nəzər salıb özümüzə aman vermədən istək və niyyətlərimiz, əməllərimiz və münasibətlərimiz haqda diqqətlə düşünməliyik. Və bu işdə özümüzə qətiyyən haqq qazandırmamalıyıq, özümüzü təmizə çıxarmağa çalışmamalıyıq! «Belə alındı", hamı belə edir»", «axı başqa cür necə edə bilərdim"?» və sair bu kimi sözlərlə özümüzü haqlı çıxarmamalıyıq. Qətiyyən! Ya Allah! Bəli, mən yolumu çox azdım. Mənə heç bir bəraət yoxdur! Bütün bunları anlayıb dərk edirəm və tam səmimiyyətlə peşman olaraq, Səndən bağışlanmaq diləyirəm!.. «Ey Rəbbimiz, biz həqiqətən (Sənə) iman gətirmişik, günahlarımızı bağışlayıb bizi cəhənnəm əzabından qoru!»" (Surə 3, ayə 16).

Axı bütün günahlardan tövbə edib Haqq Yola dönməyə bizə nə mane ola bilər? Üzümüzü Şeytandan Allaha tərəf çevirməyə nə mane olmalıdır axı? Hansı əməl bizə Allahdan daha əziz ola bilər? Əlbəttə ki, heç nə! Bəzən insan bütün günahlardan, pis əməllərdən çəkinir, yalnız hansısa birisindən başqa. Və Şeytan məhz bu əməllə bizi öz itaətində saxlayır. Sanki bütün qəlbimiz azaddır, yalnız bircə əməl onu azadlıqdan məhrum edir. Və belədə biz nəfsi istəklərimizin tam əsirinə çevrilirik. Biz hələ də İblisin əsiriyik! Və bu əsirlikdən bizi yalnız Allaha olan imanımız tam xilas edə bilər! Tövbə və Haqq Yola qayıdışla!..

### Allah tövbə edənləri sevir

İslam bizlərə öyrədir ki, Rəhman və Rəhim olan Allah səmimi qəlbdən peşman olub doğru yola qayıdan insanı mütləq bağışlayacaq, ondan hər cür ümidsizlik və çaşqınlığı uzaqlaşdırıb, tövbəsini qəbul edəcəkdir: «…Ey Mənim özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar…"» (Surə 39, ayə 53). Şübhəsiz ki, günahlardan bağışlanacağına olan ümid insanın qəlbini çirkinliklərdən təmizləməyə can atması üçün böyük bir nemətdir. Bu, insanı mehriban və mərhəmətli Allaha qayıtmağa səsləyən bir çağırışdır: «Hər kəs



pis iş gördükdən və ya (günah etməklə) özünə zülm etdikdən sonra Allahdan bağışlanmağını diləsə, Allahın bağışlayan və mərhəmətli olduğunu görər!"» (Surə 4, ayə 110). Və bir vacib məsələni də unutmamaq gərəkdir ki, Allah-Təala səmimiyyətlə tövbə edib Ondan bağışlanmağı diləyənləri nəinki əfv edir, Allah onları həm də sevir: «Allah tövbə edənləri, (təmiz və) pak olanları sevər!"» (Surə 2, ayə 222).

### Tövbə «Allahım, məni bağışla!"» deməkdən ibarət deyil

Tövbə sadəcə dillə nələrinsə müəyyən ardıcıllıqla deyilməsi deyil! Tövbə sadəcə «əstəğfirullah!»", «Allahım, məni bağışla!"» deməkdən ibarət deyil. Həqiqi tövbə budur ki, insan etdiyi günah işlərin nə qədər pis olduğunu anlasın və həmin işi gördüyünə görə səmimi qəlbdən peşmançılıq hissi keçirsin. Sonra isə tam səmimiyyətlə Allahdan bağışlanmaq diləsin. Və bir daha günah iş görməyəcəyinə qəti qərar versin! O, günah etməyi heç ağlına belə gətirməməlidir. Bundan sonra Allaha sığınıb Onun buyruqlarına əməl etmək lazımdır. Həmçinin Allahdan doğru yola hidayət olunmağı diləsin və Allah da bütün günahlarını bağışlayıb, onu Öz yoluyla aparacaq… Həqiqətən də bu bir qurtuluş, bir nicat yoludur: «…Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, nicat tapasınız!»" (Surə 24, ayə 31).

Maraqlı bir məsələyə də diqqət yetirək. Rəbbimiz hər cür çirkin əməllərdən çəkinən, səmimi qəlblə tövbə edən şəxsə daha bir müjdə verərək buyurur: «…Allah onların pis əməllərini yaxşı əməllərə çevirər!..» (Surə 25, ayə 70). Deməli, insan əvvəllər günah işlər görübsə də, günlərin bir günü günahlara "stop!" deyib ayaq saxlasa, səmimi tövbə edib Allaha qayıtsa, mərhəmətlilərin ən mərhəmətlisi olan Allah onun əvvəlki bütün əməllərinin, günah işlərinin üzərindən xətt çəkər, onları silər və hamısını yaxşı əmələ çevirər. Bundan böyük müjdə nə ola bilər ki?..

### İmana qayıdış hər cür qorxu və qəm-qüssəni aradan aparır

İnsanın bu dünyadakı xoşbəxtliyi onun könül sevincindən asılıdır; nə qədər qəlbi qəm-qüssədən, qorxu və iztirablardan, depressiya və sıxıntılardan uzaq olsa, bir o qədər o da xoşbəxt olar. Bu isə yalnız və yalnız Allaha iman gətirib Onunla yaşamaqla, Ona sığınmaqla mümkündür: «Şübhəsiz ki: «Rəbbimiz Allahdır!» - deyənlərin, sonra da (sözündə) möhkəm duranların heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməyəcəklər!»" (Surə 46, ayə 13).

İmana qayıdış hər cür qorxu və qəm-qüssəni aradan aparır. İnsan öz daxili aləmində azadlıq, sərbəstlik hiss edir. Şeytanın zəncirlərini qırıb, ona qul olmaqdan qurtulan insan əslində həqiqi azadlıq əldə edir. O, qəlbini qəm-qüssə zindanından xilas edir. Bu isə insanın din və iman sayəsində qazandığı ən böyük nemətdir… Tövbə etdikdə qəlb sevincə bürünür. Çünki bu sevinc və rahatlıq olmadan tövbə mənasızdır, nəticəsizdir. Beləcə, HƏQİQƏT ANI insanın daxili halını tamamilə dəyişdirərək öz bəhrəsini verir. Bu andan etibarən insan tamamilə yeni bir insan olur.

### Geriyə yol yoxdur!

**Tövbə etmiş insan yenicə dünyaya gəlmiş günahsız bir körpə kimidir. Ruhən o, həqiqətən də yeni bir şəxsiyyətdir. Artıq onun yeni həyatı başlayır. Allahla sürəcəyi və səadətə qovuşacağı bir həyat. Elə bir həyat ki, onun ən yaxın dostu, himayədarı, yardımçısı Allah olacaq! Amma bunun üçün ilk öncə möhkəm iradəni işə salmaq və öz yolunda qətiyyətli olmaq lazımdır. Tövbə edərkən nəyin bahasına olursa olsun, bir daha keçmiş günahlara qayıtmamağa qərar vermək lazımdır. Və əlbəttə, insan bu qərarının üstündə möhkəm dayanmalıdır. Bunun üçün isə qəti bir qanun olmalıdır: «Geriyə yol yoxdur!»". Artıq hər addımımız bizi bir qədər də Allaha yaxın etməli, imanımızı, təqvamızı bir az da artırmalıdır. Məgər Allahın səmimi dostuna çevrilmiş birisi Ondan üz çevirməyi özünə rəva bilərmi? Məgər Allaha yaxınlaşmış, bu yaxınlığın şirinliyini dadmış, ilahi sevinc, qəlb rahatlığı atmosferinə qərq olmuş birisi bir daha Allahdan uzaqlaşarmı, bütün bunlardan məhrum ola bilərmi?.. Allaha qayıdan tövbəkar üçün geriyə yol yoxdur! İrəli, ancaq və ancaq Allaha doğru irəli!..**

**«Günahları bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli, kərəmi böyük olan (Allahdandır)! Ondan başqa heç bir Tanrı yoxdur. Axır dönüş də Onadır!"» (Surə 40, ayə 3).**

Fəlsəfə elmləri namizədi
**Elşən Mustafaoğlu** (İslamazeri)

# Gedərli Dünya

*"Bil! Miniyi gecə və gündüz olan kəs dayanmış da olsa, onu qovarlar. Allah dünyanın viranlığı və axirətin abadlığından savayı bir şey istəməmişdir..."*

Məsələnin ən yaxşı bəyan yollarından biri təşbeh və təmsil olduğundan həzrət Əli (ə) də bu üsuldan istifadə edir. O, insanın bu dünyadakı ömrünü səfərə çıxmış müsafirə bənzədir və çox incə nöqtələri işıqlandırır. İnsan təcrübə, elm, müşahidə, bəndəlik yolu ilə qəbul etmişdir ki, bir gün xaraba dünya evindən köçəsidir. Onun bu dünyadakı həyatı səfər kimidir. Amma bu səfər başqa səfərlərdən fərqlənir. Adi səfərdə insan səfər vaxtını, düşəcəyi mənzili, səfərin gedişini özü müəyyənləşdirir. Hətta həcc kimi vacib dini səfərlərdə də insan öz ixtiyarındadır. Amma ömür səfəri azad deyil və bu səfərə çıxıb-çıxmamağı insan təyin etmir. Hər bir yaranmış bu səfərə çıxmağa məcburdur. Axirət səfərinin gündəlik dünyəvi səfərdən əsas fərqi budur. Dünyəvi səfərdə insan özü nəqliyyat vasitəsi seçir hərəkət istiqaməti və sürəti özü müəyyənləşdirir. Məsələn, avtomobil və ya qatarla səfərə çıxmaq insanın öz ixtiyarındadır. Hansı ki, axirət səfəri məcburidir və bu səfərin vaxtını, necəliyini təyin etmək insanın ixtiyarında deyil. İnsan bu səfəri təxirə sala bilməz, sürətini artıra bilməz. Bir sözlə, axirət səfərində insanın qərar çıxarmaq hüququ yoxdur. Bu səfər icbaridir, onun miniyini cilovlamaq qeyri-mümkündür. İnsan zamana, dövrün gedişinə süvar edilmişdir. Bu yorğa atın sürəti bizdən asılı deyil. O, insanın əməl və rəftarının təyin etdiyi mənzilə üz tutmuşdur. Ona görə də bu səfərin mahiyyətini dərk etməli, ölçülüb-biçilməmiş hərəkətlərə yol verməməli, doğru yoldan yayınıb, həlak olmamalıyıq. Zaman qatarı böyük sürətə malik olduğundan diqqətli olmalıyıq.

Bir daha qeyd edək ki, Əmirəl-möminin (ə) öz vəsiyyətində zahirən oğlu imam Həsənə (ə) müraciət etsə də, əslində bütün gənc nəslə üz tutur və onları dünya həyatının mahiyyətindən xəbərdar edir. Yəni zahirdə imam Həsənə (ə) ünvanlanan tövsiyələr əslində bütün gənclərə aiddir. Həzrət (ə) bütün insanların onun öz övladı kimi, intəhasız bir lütfdən faydalanmasını istəyir; bütün tərəqqipərvər gəncliyə xatırladır ki, əgər xeyir və kamal yolu axtarırsınızsa, imam Həsənə (ə) göstərdiyim yoldan yaxşısını tapa bilməyəcəksiniz. Əlidən (ə) canıyanan ata, imam Həsəndən (ə) layiqli oğul tanıyırsınızmı? İndi siz Əlinin (ə) ata məhəbbətindən faydalanmaq imkanına maliksiniz. Öz qədrinizi bilin,



görün sizə kimin vəsiyyəti ünvanlanıb!

Bu gözəl təşbehə nəzər salın: "Miniyi gecə və gündüz olan kəs, özü getməsə də onu apararlar..." Sözsüz ki, gecə və gündüz miniyinə süvar olan xüsusi bir şəxs deyil. Dünyada mövcud olan hər bir insan bu miniyə süvardır və dayanmadan hərəkət edir. Gözünü qapayıb açan insan özünü başqa anda görür. Şübhəsiz ki, bu səfərdən faydalanmaq, mənzil üçün sovqat, rahat yaşayış vasitələri tədarük etmək lazımdır. Çünki hər bir şəxs həmin mənzilə çatasıdır. Mənzil başında isə rahatlığa ehtiyac var. Bu barədə əvvəlcədən düşünmək lazımdır.

Bu dünya həyatı axirətə uzanmış bir yol olduğundan onu rahatlıq yeri düşünmək yox, diqqəti son və əbədi mənzilə yönəltmək lazımdır. Məbada, dünyada mövcud olan cah-cəlalın həmişə əlinizdə qalacağını güman edəsiniz. Allahın təqdiri ilə dünya həyatı müvəqqətidir və bu müvəqqətiliyin qarşısı heç bir vasitə ilə alına bilməz. Əbədi həyat isə yalnız axirət aləmindədir. Qurani-kərimdə buyurulur: "Axirət yurdu, şübhəsiz ki, əbədidir." (Ənkəbut, 64)

Dünya müvəqqəti olmaqla yanaşı, həm də rahatlıq yeri deyil. O, sadəcə keçid, yol olduğu üçün rahatlıqdan danışmağa dəyməz. Müvəqqəti, narahat bir məkana vurulmağa, əsir olmağa dəyərmi?! Bütün bu oxşatmalardan, təşbehlərdən sonra aydın oldu ki, dünya axirətlə müqayisədə qısa bir yoldur.

**Dr. Misbah Yəzdi**

# İMAMƏDDİN NƏSİMİNİN ŞEİRLƏRİ NƏ DEYİR?!!!

***Seyyid Əli Seyyid Məhəmməd oğlu İmaməddin Nəsimi 1369-cu ildə Şamaxıda anadan olmuşdur. Bəzi tədqiqatçılar onun Bakıda doğulduğunu iddia edir.***

***Azərbaycan şairi, dahi mütəfəkkir "İmaməddin Nəsimi"adı ilə məşhurdur. Şairin atası Seyid Məhəmməd Şirvanda yaxşı tanınan şəxsiyyətlərdən idi. Nəsiminin bir qardaşı da olub. Onun Şamaxıda yaşadığı, Şah Xəndan təxəllüsü ilə şeirlər yazdığı və hazırda bu adla tanınan qədim qəbiristanlıqda basdırıldığı məlumdur. İslamdan sonrakı dövrdə Şamaxı iri mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Burada çoxlu məktəb, mədrəsə, bütün Şərqdə məşhur olan şeir və musiqi məclisləri fəaliyyət göstərmiş, bundan başqa zəngin ictimai və şəxsi kitabxanalar mövcud idi. Paytaxtdan bir qədər kənarda, Məlhəm adlanan yerdə məşhur şair Xaqaninin əmisi-alim və həkim Kafiəddin tərəfindən yaradılmış Dar-üş-şəfa tibb akademiyası da fəaliyyət göstərirdi. Şamaxıdan ümumiyyətlə bir çox şair və alimlər çıxmışdır ki, onların da arasında böyük sənətkar Əfzələddin Xaqanini xüsusi qeyd etmək lazımdır.***

Şairin əsərlərinə diqqət yetirdikdə bəlli olur ki, Nəsimi Şamaxıda o dövrün ən yaxşı universitetlərinin tələbinə cavab verəcək bir dərəcədə kamil təhsil ala bilib. İlk təhsilini Şamaxıda almış, dövrün elmlərini, dinlərin tarixini, klassik Şərq və qədim yunan fəlsəfəsini, habelə ədəbiyyatını dərindən mənimsəmiş, İslam və Xristianlıq dinlərinin əsaslarına yaxından bələd olmuş, Quran, hədis elminə gözəl yiyələnmiş, tarix, psixologiya, etika, coğrafiya, tibb, astronomiya və astrologiya, riyaziyyat və məntiq elmlərinə dərindən malik olmuşdu. O, azərbaycan, fars və ərəb dillərində eyni dərəcədə gözəl məzmunlu şeirlər yaza bilirdi. Onun azərbaycanca şeirlərinin dili həm zənginliyi, həm də xalq nitqinə yaxınlığı ilə seçilir, atalar sözləri, zərb-məsəllər, hikmətli sözlər burada çoxluq təşkil edir. Nəsiminin rübailəri Azərbaycan xalq şeiri nümunələri olan bayatılara çox yaxındır. Nəsiminin poeziyasında Azərbaycanın, eləcə də digər Şərq ölkələrinin məşhur alim və şairlərinin adları teztez xatırlanır. Bunlardan Əli ibn Sinanı, Xaqanini, Nizamini, Fələkini, Həllac Mənsuru, Fəzlullah Nəimini, Şeyx Mahmud Şəbüstərini, Övhədi Marağayini və başqalarını göstərə bilərik. Bundan başqa Nəsiminin əsərlərində peyğəmbərlərin, imamların adı da çox vurğulanmışdır. Bunlardan daha çox Adəm(ə), Xızır(ə), Musa(ə), İsa(ə), Məhəmməd (s), Həzrət Əli (ə) və daha sonrakı 11 imamın adı bir çox şeirlərində vəsf edilmişdir.

Teymurləng hürufiləri ciddi təzyiqlərə məruz qoyduğu bir vaxtda Nəsimi vətəndən didərgin düşüb, İraq, Türkiyə, Suriyada yaşamağa məcbur olmuşdu. Mənbələrə görə Nəsimi Hürufilik təlimi əsasında irəli sürdüyü panteist ideyaları üstündə Hələb şəhərində edam olunub. Nəsimini Təbrizi nisbəsində təqdim edən İbn əl-İmad Hənbəli yazır: "O, hürufilərin şeyxidir, Hələbdə sakin idi, tərəfdarları çoxaldı, bidəti artdı, iş o yerə çatdı ki, sultan onun öldürülməsini əmr etdi, boynu vuruldu, dərisi soyuldu, çarmıxa çəkildi." Faktlar isə bu mənbələrin ziddinədir. Nəsiminin əsərləri ilə tanış olduqda şairin niyə edam olunduğu bizə əyan olacaq.

Nəsimi 3 dildə anadili səviyyəsindən geri qalmayan şeirlər yazıb. Demək olar ki, Nəsimi şeirlərinin məzmun cəhətdən əsas mahiyyəti Qurani-Kərimin ideyasından kənara çıxmır.

Nəsiminin əsərləri ilə yaxından tanış olduqda dünyada ikinci bir şəxsin Nəsimi qədər Əhli-beyt(ə) aşiqi olmasını demək çətindir. Bizə "Mən Allaham" kəlməsini işlədən kimi tanıdılan Nəsimi əslində təvazökarlığın ən yuxarı mərtəbələrində idi. Nəsimiyə görə insan özünü Əhli-beytə qul bilməsə Allaha çata bilməz. Əhli-beyt aşiqi isə İlahiyə olan sevgini dildə yox, əməldə göstərməli, Əhli-beytin yasaq etdiyi əməllərdən, yəni riyadan, ücbdən, həsəddən, tənbəllikdən, qafil olmaqdan çəkinməlidir. Və bununla da bəlli olur ki, Nəsimi özünü Allah yox, Böyük Yaradan qarşısında aciz məxluq hesab edir. "Şah sənsən mən gədayəm ya Əli səndən mədəd", "Bəs Əli yolunda xaksar olmaq gərəkdir, xaksar". "Nəsimi, bəndeyi Qəmbər olubdur, çakəre Heydər", "Xake dəre Əhli-beytəm", "Hamıdan kəmtərin kəmtər, be cane xake pa gördüm".. Kimlərə isə adi görsənən bu ifadələr əlbəttə zövq əhli tərəfindən ayrı cür qarşılanır. Nəsiminin o dövrdə Yezidi qan içən it, donuz adlandırmasına heç də ötəri baxmaq olmaz . Nəsimi qeyri- Əhli-beyt ideyalı hakimlərin hökmranlıq etdiyi ölkələrdə yaşayan mütəfəkkirlər

arasında bəlkə də təqiyyə etməyən yeganə şair idi. Bəhanə olaraq Nəsimini kafir kimi öldürsələr də əslində buna səbəb onun Əhli-beyti(ə) təbliğ etməsi idi. Sual çıxa bilər ki, bu cəza niyə məhz Nəsimiyə şamil olundu, niyə Nəsimi bu qədər təqib olunurdu? Əlbəttə, cavab çox sadədir. Nəsiminin Əhli-beyt(ə) haqda olan ağır fəlsəfə yüklü şeirləri sanki musiqi bəstəsində idi. Başa düşən də, başa düşməyən də bu rəvan, axıcı şeirləri dillərində zümzümə edirdi. Məclislərdə Nəsiminin qəzəlləri, qəsidələri oxunurdu. Bu şeirlər qılınc gücü ilə dəyişilməyən beyinlərə daha tez təsir edirdi. Bir sözlə Nəsiminin rəvan şeirləri cəmiyyət arasında daha sürətlə yayılırdı.

Gəl ki, müştaq olmuşam didarına,
Vermişəm can zülf-i anbərbarına,
Məhrəm etdin çün məni əsrarına,
Ey pəri, gəl çək məni bir darına.

Ey yüzündən zahir əsma-i huda,
Şöylə ki, Quranda dedi kulləha,
Adəmi bil, andadır əsrarha,
Can ilə başın yolun qıl fəda.

Eşq ilə gəldi cəm-i ənbiya,
Eşqdir seyrü süluk-i övliya,
Eşq ilə yola girərlər biriya,
Eşq ilə vasil olurlar tanrıya.

Al əlindən atını, yaban at,
Haqpərəst ol, haqqı tanı, olma at.
Dünyanın dövründə yoxdur çün səbat,
Atını qaçırma ruhdan, olma mat.

Ey cəmalin Qulhüvallahü əhəd,
Surətin yazısı Allahüssaməd
Bir ucu zülfün əzəl, biri əbəd,
Hüsnünə şeytan imiş mən la səcəd.

Haqq Təala varlığı adəmdədir,
Ev onundur, ol bu evdə dəmdədir,
Bilmədi şeytan bu sırrı, gamdadır,
Ol səbəbdən ta əbəd matəmdədir.

Həmin dövrdə şeirlərində əqidəsinin birbaşa izharı siyasi cəhətdən Nəsimi üçün çox təhlükəli idi. Xüsusilə də özlərini Əhli-beyt(ə) məzhəbindən hesab edənlər daim təqib olunurdu. Buna baxmayaraq Nəsimi öz ideoloji mənsubiyyətini gizlətmir, iftixarla şeirlərində onlara müraciət edirdi.

Mən ol sadiq qulam kim, Cəfəriyəm.
Həqiqət söylərəm, həqq Heydəriyəm...
Nəsimiyəm,Yezidə lənətim var
Əzəldən mən düçare Xeybəriyəm.

Nəsimi şeirlərinin birində dərisinin soyulmasına fətva verənləri belə adlandırmışdır. " Şul pustimi soydu Yezid-Mərvanilər". Buradan bir daha məlum



olur ki, Nəsimi İslamda təriqətlər zəminində süni şəkildə ixtilaflar yaradan hakimlər tərəfindən təqib olunurmuş, nəinki ateist və ya özünü Allah adlandırması səbəbi ilə. "Ənəlhəqq" kəlməsini dəfələrlə işlədən Nəsimi düşmənlərinin onu başa düşməmələrini də şeirlərində vurğulamışdır.

Şul Yezid-Mərvanilər, pustimi soydu qazilər,
Mən "Ənəlhəqq" çağırıb Mənsurilən bir dar idim.
Soydilər pustimi aldım qayib, oldum olzaman,
Kimsə bilməz bu rəmuzi, həqqlə sərdar idim.

Nəsimi Ürfan məktəbinə təkcə nəzəri cəhətdən yox, praktiki cəhətdən də müraciət etdiyi üçün onu çox vaxt başa düşmürdülər. Ürfan nəzəriyyəsindən bir qədər məlumatı olan şəxs yaxşı bilir ki, Seyri-süluk yolunda arifcəsinə irəliləyən salik hara baxdıqda İlahi təcəllanı görür və o baxımdan dönüb özünə baxanda İlahi nişanə adlandırır özünü.

Həqq Təala Adəm oğlu özüdür,
Otuz iki Həqq kəlamı sözüdür.
Cümlə aləm bil ki, Allah özüdür,
Adəm ol candır ki, günəş yüzüdür.

Arif bundan sonra "Ənəlhəqq" deyəndə özünü Allah yox, İlahi varlıqda yaradıcının nişanəsi kimi görür. "Ənəlhəqq"məfhumunu başa düşməyənləri Nəsimi qəflətdə olduqlarına görə qınayır, onların yəqin əhli olmadıqlarından, həmişə güman əhli olduqlarından bu məsələdə çaşıb qaldıqlarını bildirir. Həzrət Əlidən(ə) belə bir hədis var. "Özünü

# Nəsimi





tanıyan Allahı tanıyar". Nəsimi insanın, aləmin İlahi bir nişanə olduğunu məharətlə şeirlərində tərənnüm etmişdir.

Qeyb və gümandan özgə ey zahid urma dəm ki,
Həqqülyəqin buldum, tərk eylədim gümanı.
Mənsur ənəlhəqq aydır, yəni ki, həqq mənəm, həqq,
Həqq çun əyanmış, gör, kim görmüyə əyanı.

Həzrət Əlidən(ə) bu barədə hədis də qeyd olunmuşdur. "Mən görmədiyim Allaha ibadət etmərəm." Əgər Nəsimi özünü Allah bilsəydi Əhli-Beytin qapısının tozu deməzdi özünə. Onun "Qibləgahımdır Məhəmməd, səcdəgahımdır Əli" qafiyəsi ilə yazdığı şeir özünü insan övladı hesab etməsinə bir daha sübutdur.

**Nəsimi şeirlərində Əhli-Beyt.** Çox çətin bir dövrdə, Əhli-Beyt(ə) məsumlarının adını çəkən şəxslərin təqib olunan vaxtı Nəsimi qorxmadan iftixar hissi ilə " Kim Məhəmmədi Əlidən ayrur lənət ona, Ləhmikə ləhmi deyilmi, ya Əli səndən mədəd" demiş və 14 məsuma onlarla şeirlər yazmışdır. Aşağıdakı şeiri bunun tam təsdiqidir.

Mən qulami xanədanam, padişahımdı Əli,
Ehtiyacım var ona püşdü-pənahımdı Əli,
Könlümü qıldı münəvvər, mərhəmanımdı Əli,
Qibləgahımdır Məhəmməd , səcdəgahımdır Əli.
Gəldilər həqdən bəyanə sirri ağaz etdilər,
Sözləri ilə bu cahan mülkinə pərvaz etdilər,
Həmdülillah, biz gədanı məhrəmi-raz etdilər,
Qibləgahımdır Məhəmməd , səcdəgahımdır Əli.
Ta əzəldən padişahımdır Həsən xülqi-riza,
Dünyavi üqbəda sərtacım Hüseyni Kərbala,
Nuri çeşmimdir İmam Zeynul-İbad,
Qibləgahımdır Məhəmməd , səcdəgahımdır Əli.
Canu dildən bəndəye Baqir, qulami Cəfərəm,
Museyi-Kazım, İmam Rzaya kəmtərəm
Şah Təqi, Baba Nəqi yolunda paki-bəstərəm,
Qibləgahımdır Məhəmməd , səcdəgahımdır Əli.
Masəva tərk eyləyib bizləri diyari ləhlətə,
Hakim onlardır, bu gün layiqdir onlar hörmətə,
Lah deyənlər uğrayırlar bu cahanda möhnətə,
Qibləgahımdır Məhəmməd , səcdəgahımdır Əli.
Cümləmiz arzu edənlər Əskəriyyə əsgərüz,
Mehdiyi-Sahib Zamana biz təvəlla eyləriz,
Həmdillah eylə Ey Nəsimi, biz yolunu gözləriz,
Qibləgahımdır Məhəmməd, səcdəgahımdır Əli.

**Nəsimi şeirlərində Quran**

***Nəsiminin şeirlərində Qurana müraciət diqqətəlayiq dərəcədə çoxdur.***

Ey cəmalın Qul huvəllahu əhəd.
Surətin yazısı Allahus Saməd.
Bir ucu zülfünün əzəl, biri əbəd.
Hüsnünə şeytanmış mən lə səcəd.

Ey saçın vəlleyl, üzün vəlzzüha,
Surətin şanında qul kəfa,
Ey saçından çun əyan oldu mənə,
Sirre əlrəhman əlaələrş üstüvə.

Aşağıdakı şeirdə Nəsimi Quranın "kun fəyəkun" (ol desəm olar) ayəsindən məharətlə istifadə edərək yaradılışa toxunmuş və həmin cümlənin ilk(k hərfi) və son hərfini(n) yaradılışın başlanğıcı hesab etmişdir.

Kaf və Nun əmrindən oldu kainat,
Həm sifətdir Kaf və Nun, həm eyne zat.
Kaf və Nundan vacib oldu mümkünat,
Bəlkə sənsin aləmə zat və sifat.

Allah aləmi xəlq edərkən "Kun fəyəkun" (ol desəm olar) demişdir və Nəsimiyə görə bu yaradılış Kaf Nuna yetməmiş baş vermişdir. Bununla da Nəsimi sübut etmək istəmişdir ki, Allahın etdikləri üçün zaman məhdudiyyəti yoxdur. Həmin "Kun fəyəkun" ayəsinin açıqlaması bizim dərkimiz üçündür.

***(Davamı var)***

**Vüsal Hətəmov**. (Nəsimişünas)

# Yaxşı və pis dost hansı xüsusiyyətlərə malik olmalıdır?

**Məsum imamlardan nəql olunmuş rəvayətlərə görə, yaxşı dost əsasən aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:**

**1. Ağıllı və düşüncəli:** Dini rəvayətlərdə (hədislərdə) ağıllı və düşüncəli dostla yoldaşlıq etmək təkid olunmuşdur. İmam Əli (ə) buyurur: "Ağıllı dostla yoldaşlıq etmək insana müsbət ruh yüksəkliyi bəxş edər". Bu məsələ o qədər ciddidir ki, hətta ağıllı düşmən, nadan dostdan üstün göstərilmişdir. İmam Əli (ə) bu barədə buyurur: "Sizin üçün ağıllı düşmən, nadan dostdan daha etibarlıdır". Bilikli insanlarla dostluq çox gözəldir, hətta bilikli düşmən sizi ucaltdığı halda, nadan dost sizi yerə çırpar.

**2. Yaxşı əxlaqlı və xoş xasiyyətli:**Yaxşı dost rəzil və pis əxlaqdan, batini çirkinlikdən uzaq olmalıdır. Məsumların rəvayətlərində yaramazlarla, əxlaqsız və pozğun işlərlə məşğul olanlarla dostluq etmək qadağan olunmuşdur. İmam Əli (ə) buyurur: "Yaramazlarla ünsiyyət, yaramazlığa səbəb olacaq. Necə ki, murdar və iylənmiş bir leşin üzərindən əsən külək özüylə pis qoxu gətirər". Pozğun və yüngüllük edən şəxslərlə get-gəl edənlər, özlərini onlardan nə qədər qorusalar da, cəmiyyətdə bu rüsvayçılıq və biabırçılıqdan yaxa qurtara bilməyəcəklər. Əziz peyğəmbərimiz (s) buyurur: "O kəs insanlar arasında üzüqara olmağa layiqdir ki, rüsvay olmuş şəxslərlə ünsiyyət qurur".

Bacardığın qədər qaç pis adamdan,
Pis dost ağrılıdır əfi ilandan.
Əgər dişləyirsə ilan canını,
Pis dost oda çəkir din-imanını.

**3. Verdiyi sözlərin üstündə durmalı:** Yaxşı dost dostluq qaydalarına əməl edən şəxsdir. İmam Sadiq (ə) buyurur: "Dostluğun da öz həddi-hüdudu vardır. Buna riayət edəni həqiqi dostun bil, riayət etməyəni isə özünə dost bilmə. Dostluğun həddi bunlardan ibarətdir:

1) Gizlində və aşkarda sənə qarşı eyni olsun;
2) Sənin gözəlliyini və eybini öz gözəlliyi və eybi bilsin;
3) Mal-dövlət, sərvət və ya vəzifə əldə etsə də, sənə qarşı rəftarı dəyişməsin;
4) İmkanlı olduğu halda səndən heç nəyi əsirgəməsin;
5) Çətinliyə düşdüyün vaxt səni tənha qoyub getməsin".

**4. Bərabər səviyyədə olmalı:** Səninlə maddi və ictimai cəhətdən bərabər səviyyədə olan şəxs, sənin üçün ən yaxşı dostdur. İmam Baqir (ə) buyurur: "Bir şəxslə yoldaşlıq etmək istəsən, özün kimisiylə yoldaş və dost ol. Səni öz öhdəsinə götürən bir kimsəylə dostluq etmə ki, bu yoldaşlıq və dostluq sənin alçaq və xar olmanla nəticələnər".

Yuxarıda qeyd etdiklərimizdən məlum olur ki, bu xüsusiyyətlərə malik olmayan bir şəxs, pis dost, yoldaş sayılır. Yəni dost və yoldaş ağıllı və düşüncəli, yaxşı əxlaq və xoş xasiyyət sahibi deyilsə, verdiyi sözlərin üstündə durmursa və siz də bərabər səviyyədə deyilsinizsə, onda o sizin üçün yaxşı dost və yoldaş ola bilməz.

Rəvayətlərdə hətta bəzi insanlarla dostluq etmək qadağan olunmuşdur. Biz o rəvayətlərdən daha geniş və mükəmməl mənaya malik olanlarını burada qeyd edirik. İmam Səccad (ə) insanları beş dəstə ilə dostluq və yoldaşlıq etməsindən çəkindirərək buyurur: "Ey övladım, beş dəstəyə diqqətlə bax, onlarla dost, həmsöhbət və həmsəfər olma, yoldaşlıq belə etmə:

1) Yalançıyla dost olmaqdan çəkin, çünki o, həmişə ilğım kimidir, yaxını uzaq, uzağı isə yaxın göstərəcək;
2) Günahkarla (tamahkar) dost olmaqdan çəkin, çünki o, səni bir loğmaya və ya ondan da ucuz satar;
3) Paxılla dost olmaqdan çəkin, çünki ona ehtiyacın olduğu zaman səni tərk edər;
4) Nadanla yoldaş olmaqdan çəkin, çünki sənə xeyir vermək istədiyi halda ziyan vurar;
5) Yaxınları ilə (qohum-əqrabasıyla) əlaqəni kəsənlə dostluqdan çəkin, çünki onun kimilərini Qurani-Kərimdə lənətlənmiş (yəni ALLAHın rəhmətindən uzaq olan) görmüşəm".

# Mötədillik və Mülayimlik

*Cəmiyyətdə birlik və vəhdətin yaranmasında mühüm amillərdən biri də mötədillik və hər növ ifrat-təfritdən uzaq olmaqdır. Yaşadığımız dünya İslam dininin əmrlərinə və prinsiplərinə ikili standartlarla yanaşmaqdadır. Bəzi İslam ölkələri ölkənin idarə olunması üçün hələ də İslam təlimlərinə uyğun qanun və qaydalar qəbul etməyiblər və yalnız adlarının müsəlman olmaları ilə kifayətlənirlər. Bir qrup ölkələrdə isə İslam hökmləri çox çətin və dəhşətli şəkildə icra edilir ki, bu da İslam dininin dünyada dəhşətli və qorxunc bir din kimi tanıdılmasına səbəb olur. İmam Əlinin (ə) baxışlarında bu əqidə və rəftarların hər ikisi pislənilir. O həzrət buyurur: «Qarşısında Cənnətlə Cəhənnəm olan hər bir kəs asudə deyil. (Birinci, saleh əməllərlə) cəld səy göstərən (İlahi əzabdan) nicat tapmışdır. (İkinci) Haqqı axtaran ki, tənbəldir və (Allahın rəhmət və bağışlamağına) ümid edir. (Üçüncü) Təqsirkar (haqqa göz yuman), ilahi atəş və əzab içində həlak olandır. Yolun sağı və solu ilə getmək azğınlığa gətirib çıxarar. Doğru yol orta yoldur."*

*Və ya xəvaricə buyurur: «(Şeytanın arxasınca getməyin təsirindən) tezliklə iki tayfa mənə görə həlak olacaq: dostluqda ifrata varan dost. Belə ki, sonsuz məhəbbəti onu batil yola (onu Allah və ya peyğəmbər sanmaları kimi) çəkəcək. Digəri isə, öz həddini aşan və sonsuz düşmənçiliyinin nahaq yola vadar etdiyi (xəvaric və nəvasib kimi,) düşməndir. Mənim haqqımda ən yaxşı iş görənlər mötədil dəstədəndirlər. Belə isə, bu mötədil dəstəyə yoldaş olub, böyük və parlaq ürəyin (adil sultanın ardıcıllarının) ardınca gedin.»*

## İtaət və tabeçilik

İtaət və tabeçilik hər bir ictimai təşkilatın əsas prinsiplərindən biridir. Müəyyən hədəfə çatmaq üçün bir qrup insanı bir araya gətirilən hər hansı bir təşkilatda əmrə tabe olmaq və itaət etmək mühüm rol oynayır və bu itaət insanın bütün bədən üzvlərinin başa tabe olması kimidir. İmam Əli (ə) müsəlmanların birliyinin vacibliyini qeyd edərək buyurur: «And olsun Allaha! Düşünürəm ki, tezliklə bu qövm sizə qalib gələcək. Çünki onlar batil olduqları halda əl-ələ verib birlikdədirlər, lakin siz haqq olduğunuz halda pərakəndəsiniz. Siz haqq olan imamınıza itaət etmirsiniz, lakin onlar nahaq olan imamlarına tabedirlər.»

Bəli, əgər bir cəmiyyətdə itaət və tabeçiliyin rolu aradan getsə böyük rəhbər, ərəblərin tək qılınc oynadanı, Quran hafizi və ədalət carçısı olan Əli (ə) kimi şəxsiyyət belə bunun müqabilində aciz qalar. O həzrət buyurur: «İtaət edilməyən rəhbərin fikir və rəyi nə ola bilər ki?»

## Müştərəkliklərə təkid etmək və fərqlərdən çəkinmək

Hər şeydən çox müsəlman cəmiyyətlərini təhdid edən məsələlərdən biri də bəzi dini mövzularda mövcud ixtilaf və səliqə fərqlərini böyütməkdir. Bu problemlərin bir hissəsi müsəlmanların dini təlimləri doğru-düzgün qavraya bilməməklərinə qayıdırsa, böyük bir hissəsi isə onların ortaq düşmənlərinin fəaliyyətinə aiddir. Onlar mövcud ixtilafları təhlil edərək özlərinin çirkin və şeytani məqsədlərinə çatmaq üçün ixtilaf və təfriqə odunu daha da alovlandırırlar. Həzrət Əli (ə) xəvaricə buyurmuşdu: «Quran ən böyük dərdlərə yəni, küfr, nifaq, ziyankarlıq və çaşqınlıq kimi dərdlərə şəfadır.»

## Xəbərlər və hadisələr haqqında düşünmək

Yaşadığımız müasir dövrdə xəbər və hadisələr mümkün olan ən qısa müddətdə okeanların o tərəfindən cəzbedici və çaşdırıcı formalarla insanların beyinlərinə yeridilir. Qərb dünyası özünün çirkin hədəflərini demokratiya, insan haqları, etnik qrupların haqqı, söz və qələm azadlığı, insana hörmət, qadın hüququ və s. bu kimi sözlərlə bəzəyərək baş vermiş hadisələri özünə sərf etdiyi kimi təhlil edir və beləliklə ictimai rəyə təsir edir. Onlar tərəfindən aparılan belə məqsədyönlü təbliğatlardan biri də məzhəblər arası problem və ixtilaflar şişirdilir və beləliklə ölkə daxili, regional və beynəlxalq səviyyələrdə müsəlmanlar arasında təfriqə salırlar. İmam Əli (ə) müsəlmanlar arasında baş verə biləcək təfriqə və ixtilafın qarşısını almaq üçün buyurmuşdur: «Hər bir xəbəri eşitdikdə, onu doğru-düzgün anlayın və onun haqqında düşünün. Çünki elmi nəql edən çox, lakin onun haqqında düşünən azdır."

Əlbəttə etiraf etməliyik ki, İmam Əlinin (ə) dövründə müsəlmanların problemləri indiki dövrdə olduğu kimi regional və beynəlxalq səviyyəli problemlər dey-

ildi, lakin o həzrətin hər bir xəbəri dəqiq şəkildə araşdırılması barədə buyurduğu kəlam öz qüvvəsində qalır. Əsl müsəlman eşitdiyi hər bir xəbəri dəqiq şəkildə araşdırmadan və onun doğru olub-olmadığına əmin olmadan nə qəbul, nə də yaymamalıdır. Bunun mənası odur ki, əgər bu qiymətli kəlamı keçmiş xəbərlərə tətbiq etsək müsəlmanlar arasında birliyin yaranmasına səbəb olacaq və əgər onu indiki və gələcək xəbərlərə tətbiq etsək hər növ təfriqə və ixtilafın qarşısı alınacaq.

## İnsanların məmurlardan razı olmaları

Əmirəl-möminin Əli (ə) müsəlmanlar arasında vəhdət və birliyin qorunması yollarından birini də insanların məmurlardan və hakimlərdən razı olmalarında görürdü. O həzrətin nəzərinə görə bir çox hallarda cəmiyyətdə yaranan təfriqə və ixtilaflar insanların məmur və hakimlərdən narazı olmaları səbəbindən baş verir. İmam Əli (ə) tək-tək insanların məmur və hakimlərdən razı olmalarını onları tanımaq və dəyərləndirmək üçün əsas meyar hesab edirdi. Başqa sözlə əgər bir məmur insanların hüquqlarını qorumaqda süstlük edirdisə və ya cəmiyyətdə ədaləti bərqərar etməkdə nöqsanla üzləşirdisə və insanlarla rəftarında İslam ədəb və əxlaq qaydalarına riayət etmirdisə, onu doğru yola çağırır və bu fayda vermədikdə onu dərhal işdən uzaqlaşdırırdı. İmam Əlinin (ə), onun tərəfindən Ərdəşir Xurrədəki valisi Musqələ ibn Hubəyrə Şeybaniyə olan məktubu bu qəbildən olan məktublarındandır: «Mənə bir xəbər çatıb ki, əgər sən onu etmisənsə öz Allahını qəzəbləndirmisən və imam və rəhbərini hirsləndirmisən: sən müsəlmanların nizə və atlarının topladığı və yolunda qanları axıdılmış mallarını səni seçmiş ərəb qohumların arasında bölüşdürmüsən.»

Başqa bir yerdə öz məmurlarından birinə buyurub: «Hakim olduğun şəhərin əkinçiləri sənin kobudluğun, daşürəkliliyin, onları xar etməyin və zülmkarlığından şikayət ediblər. Mən fikirləşdim. Onları sənin onlara çox yaxınlaşmağına layiq görmədim. Çünki onlar müşrikdirlər. Amma onlar uzaq olmaq və zülm edilməyə də layiq deyildirlər. Çünki peyman bağlayıblar. Buna görə də onlarla sərtliklə qarışıq olan mehribançılığı öz şüarın et və onlarla sərtqəlblilik və mehribançılıq arasında rəftar et. Allahın istəyi ilə onlar üçün yaxınlaşdırmaqla lap yaxınlaşdırmağı və uzaqlaşdırmaqla lap uzaqlaşdırmağı bir-birinə qarışdır (mötədilliyi əldən vermə).»

Göründüyü kimi İmam Əli (ə) özünün bütün məmurlarını ədalətə və mötədilliyə çağırır və hər növ ifrata varmaqdan uzaqlaşdırır. O həzrət İslam hökumətində yaşayan dinindən, irqindən asılı olmayaraq bütün insanların bərabər hüquqa malik olmalarını bildirirdi. Aydındır ki, belə bir cəmiyyətdə heç vaxt təfriqə və nifaq baş verməyəcək, çünki bütün vətəndaşlar hakimiyyəti özlərinki hesab edirlər.

## Başqalarının fikir və rəylərindən istifadə etmək

Bildiyimiz kimi həm Quran ayələrində, həm İslam Peyğəmbərinin (s) hədislərində, həm də məsum imamların (ə) və din alimlərinin buyruqlarında başqalarının fikir və rəylərindən istifadə etmək bəyənilir. Hər bir ideya və fikrin ümumi, möhkəm və daha az səhvə malik olması üçün həmin ideya müəyyən bir prosesdə başqalarının rəy və tənqidlərini özünə cəzb etməklə kamilləşir. Başqalarının fikir və ideyalarından asanlıqla istifadə edilən bir cəmiyyətdə vəhdət və birlik sütunları daha möhkəm olar. İmam Əli (ə) bu barədə buyurur: «Hər kəs başqalarının rəylərinə diqqət yetirsə, öz səhvlərini asanlıqla tanıyar.»

Məqalənin sonunda İslam ümmətinin vəhdət və birliyinə mane olan ən ümdə məsələlərin adlarını qeyd edirik. Bütün bunlar Həzrət Əlinin (ə) nurani və dəyərli kəlamlarında çox geniş şəkildə öz əksini tapmışdır və asanlıqla o həzrətin xütbələrinin, məktublarının və qısa kəlamlarının mətnindən istixrac olunur. İmam Əli (ə) aşağıdakıları müsəlmanların vəhdətinə mane olan əsas amillərdən hesab edir:

1. Həsəd.
2. Dünya və axirət məsələlərini bilməmək və ya bu haqda yetərincə elmə malik olmamaq.
3. Kəskin şövqlə hakimiyyətə can atmaq.
4. Allahı yad etməkdən uzaqlaşmaq.
5. Kin saxlamaq və bunu uzun müddət davam etdirmək.
6. Başqaları ilə həmfikir və həməqidə olmaqdan qaçmaq.
7. Cəmiyyətdə ədalətsizlik və zülm.
8. Həmnövlərə qarşı töhmət və böhtan.
9. İşlərdə ifratçılığa yol vermək.
10. Nəfsi istəkləri yerinə yetirmək.
11. Bidət yaratmaq və bidətlərə əməl etmək.
12. İxtilaflara israr etmək.
13. İşlərdə şəkk-şübhə və tərəddüd.

İmam Əli (ə) Təlhə və Zübeyr haqqında buyurub: «Bəsirətim və gözüaçıqlığım mənimlədir, səhvə yönəltmədim və səhv yola salınmadım. Onlar zülmkar və günahkar bir dəstədirlər. Qara gil, əqrəb zəhəri və zülmət şübhəsi onlardadır. Bu iş aşkar oldu. Batil kökündən qoparıldı.»

**1. Fitnəgərlik**

«Özünüzü fitnəyə salmayın və fitnə yolundan qayıdın. Öz canıma and olsun ki, fitnə odunda mömin yanacaq, qeyriləri isə amanda qalacaq.»

**2. Elmli olmadığı halda özünü alim adlandırmaq**

«Bəndələr arasında eləsi var ki, özünü alim adlandırır, halbuki onda elmdən heç bir əsər-əlamət yoxdur. Bir ovuc cahil fikirləri cahillərdən və bir ovuc çaşqınlıqları çaşqınlardan öyrənib, insanların yolunda tələ qurmuş, batil sözlər deyir, Allahın Kitabını öz rəyləri ilə təfsir edir və həqiqəti öz istədikləri kimi bu tərəfə, o tərəfə çəkirlər.»

**Məcid Kamrani**





# QURAN TƏHRİF OLUNUBMU?

***Qurani-kərimin nazil olmasından 14 əsr keçsə də, bu müqəddəs kitabın özəllikləri barədə müzakirələr səngimək bilmir.***

Quranın qədim (əzəli) yoxsa hadis (yaradılmış) bir kitab olması, təhrif edilib-edilməməsi, Qurandakı nasix və mənsux ayələrin sayı barədə mübahisələr İslam tarixinin bəzi dönəmlərində o qədər şiddət qazanıb ki, hətta bu məsələlərdə bir mövqeyə mənsub olan şəxslər əks tərəfi küfrdə ittiham etməkdən də çəkinməyiblər. Demək olar ki, həmişə aktual olan və bəzi qərəzli qüvvələr tərəfindən hər zaman gündəmdə saxlanılan problemlərdən biri də Quranın təhrif olunub-olunmaması məsələsidir. Günümüzdə istər internet saytlarındakı forum müzakirələrində, istərsə də çap olunan kitablarda Quranın təhrifi məsələsinin tez-tez qabardıldığının şahidi oluruq. Özü də bir qayda olaraq, bu müzakirələr məzhəblərin ideya mübarizəsi və sünni-şiə qarşıdurması fonunda aparılır. Adətən, Quranın təhrifi məsələsi bir məzhəbin o biri məzhəbi haqsız çıxarmaq və küfrdə ittiham etmək cəhdləri üçün vasitəyə çevrilir.

Hər şeydən əvvəl bunu vurğulamaq istərdik ki, Qurani-kərimin özündə müqəddəs kitabın hər cür təhrifdən uzaq olması və qiyamətə kimi Allahın nəzarəti altında toxunulmaz qalacağı qətiyyətlə bildirilir: «Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq» («Hicr» , 9).

İslam tarixi boyunca müsəlmanların böyük əksəriyyətinin əqidəsi də buna uyğun olmuşdur. Çünki Qurani-kərimin təhrif olunduğuna inanmaq bütünlükdə İslam dininin doğruluğunu şübhə altında qoymaq deməkdir. Axı, dinimizin əqidə, əxlaq və şəriət mövzularındakı göstərişləri ilk növbədə Qurani-kərimə əsaslanır.

Həm şiə, həm də sünni məzhəbinə mənsub böyük alimlər Qurani-kərimin təhrif edilmədiyini qətiyyətlə bildirmiş və bu əqidəni öz mənsub olduqları məzhəbin görüşü kimi dəyərləndirmişlər. Lakin hədis məcmuələrində rast gəldiyimiz bəzi rəvayətlər Qurandan müəyyən ayə və surələrin çıxarıldığını, hazırki Quranın Peyğəmbər zamanındakı Qurandan fərqləndiyini iddia etməkdədir. Bu rəvayətlərin məzmunu Qurani-kərimin yuxarıda göstərilmiş ayəsinin möhkəm hökmünə zidd olduğu üçün, doğru sayıla bilməz. Çünki hər hansı hədis Quranla ziddiyyət təşkil edərsə, müsəlmanların vəzifəsi Quranı əsas tutmaq və həmin hədisi etibarsız saymaqdır.

Quranın təhrif edilməsi inancı uzun əsrlər boyunca şiə məzhəbinə aid edilmiş və bu məzhəbin əleyhinə yazılan radikal məzmunlu kitablarda şiəliyin haqsızlığına sübut kimi gətirilmişdir. Əslində isə, şiə məzhəbində belə bir inanc yoxdur. Doğrudur, XVII-XVIII əsrlərdə şiəlik daxilində güclü mövqeyə malik olmuş əxbarilik cərəyanının nümayəndələri arasında Quranın təhrif olunduğuna inananlar var idi. Məlum olduğu kimi, əxbarilər ictihadı qəbul etmir, dini hökmləri yalnız Qurandan və sünnədən əldə etməyi düzgün sayır, bütün hədisləri mötəbər bilir, bu gün zəif bilinən rəvayətlərin belə, doğruluğuna inanırdılar. Ona görə də, onların Quran təhrifi barədə zəif rəvayətlərə inanmaları təbiidir.

Lakin şiəliyin əsil ruhunu təmsil edən üsuli məktəbində Quranın hər cür təhrifdən uzaq olduğu əqidəsi mütləq mənada hakimdir. Ona görə də, şiə məzhəbinin ən özəl xüsusiyyəti olan ictihad ənənəsini danan əxbarilərin sözünü bütünlükdə bu məzhəbin adına yazmaq ən azı ədalətsizlikdir.

Şiəliyin ən böyük ideoloqlarından sayılan Şeyx Səduq, Şeyx Müfid, Seyyid Mürtəza, Şeyx Tusi, Əllamə Təbrisi, Şeyx Bəhai, Feyz Kaşani, Şeyx Cəfər Kaşifül-qita və başqaları Qurani-kərimin təhrifdən uzaq olduğunu öz əsərlərində qətiyyətlə bəyan etmişlər. Məsələn, Şeyx Səduq şiə məzhəbinin əqidə əsaslarına həsr etdiyi «əl-Etiqadat» kitabında yazır: «Əsil Quran indi camaatın əlində olanla eynidir… Hər kim desə ki, biz (şiələr) əsil Quranın həcmcə bundan çox olduğunu söyləyirik, o adam yalan demiş olar». Şiə məzhəbinin ən mötəbər təfsir mənbələrindən sayılan «Məcməül-bəyan» kitabının müəllifi Şeyx Fəzl ibn Həsən Təbrisi isə adı çəkilən əsərin müqəddiməsində bu məsələyə ayrıca fəsl ayırıb. O, təhrif barədə hədislərin mövcudluğunu etiraf etsə də, «alimlərimizin məzhəbi (yolu) bu fikrin əksinin doğru olduğunu göstərir» deyə, təhrif inancına qarşı çıxır, özündən əvvəl yaşamış Seyyid Mürtəzanın bu mövzudakı sübutlarını ortaya qoyur.

Quranın təhrifi barədə şiə mənbələrindəki hədisləri incələyərkən, onların əksəriyyətinin sənədində nöqsanlar olduğunu görürük. Məsələn, bu hədislərin raviləri sırasında yer tutan Əhməd ibn Məhəmməd Səyyari, Hüseyn ibn Zibyan, Əli ibn Əhməd Kufi kimi şəxslər rical alimləri tərəfindən etimadsız sayılırlar. Həmçinin,




təhrif hədislərinin nəql olunduğu ilkin mənbələrin də bir çoxu şiə məzhəbində çox da mötəbər sayılmayan kitablardır (məsələn, Süleym ibn Qeys Hilalinin kitabı).

Şiə alimləri Quranın təhrif olunmadığını əsaslandırmaq üçün Həzrət Mühəmməd Peyğəmbərin (s) «səqəleyn» adı ilə məşhur olan hədisini də sübut gətirirlər. Hədisdə buyurulur: «Sizin aranızda iki qiymətli əşya (əmanət) qoyuram: Allahın kitabı və Əhli-beytim. Bunlara bağlansanız, zəlalətə düşməzsiniz. Bunlar (qiyamət günündə) cənnət hovuzunun kənarında mənim hüzuruma çatana kimi bir-birindən ayrılmazlar». Əgər Qurani-kərim təhrif olunsaydı, Peyğəmbər Allahın yardımı ilə bunu qabaqcadan bilər və bizləri Qurana bağlanmağa təşviq etməzdi. Həmçinin, əgər Quran İslam Peyğəmbərinin vəfatından sonrakı dövrdə təhrif edilsəydi, şiə imamları buna etiraz edərdilər və bu zaman onlardan rəvayət edilən hədislər indiki kimi tək-tük yox, çox olardı, mütəvatir həddinə yetişərdi.

Qurani-kərimin sair səmavi kitablardan fərqi və üstünlüyü də təhrifə məruz qalmamasıdır. İslamdan qabaqkı bütün dinlər, bütün səmavi kitablar insanlar tərəfindən qərəzli surətdə dəyişdirilib. Yalnız Qurani-kərim bütün təcavüzlərdən amanda qalıb. Əgər Quranın mətni dəyişdirilsəydi, onun bədii və elmi ecazı öz qüvvəsini itirərdi. Halbuki, Quranda hətta hərflərin işlənmə sayı və ardıcıllığı belə, dəqiq riyazi qanunauyğunluqlara tabedir.

Şiələrin guya Quranın təhrif edildiyinə əqidə bəsləməsi haqqında irəli sürülən iddianın səbəblərindən biri də hədislərdə rast gəldiyimiz «Əlinin müshəfi» məfhumudur. Bir çoxları bunu səhv anlayırlar, İmam Əliyə məxsus Quranın indiki Qurandan fərqli olduğunu və şiələrin də yalnız həmin Quranı düzgün saydıqlarını düşünürlər. Halbuki, şiə əqidəsincə, Həzrət Mühəmməd Peyğəmbərin (s) vəfatından dərhal sonra o həzrətin vəsiyyətinə əsasən, Əli ibn Əbu Talib (ə) o zamana kimi pərakəndə halda mövcud olan Quran ayələrini toplayıb səhifələrə köçürdü və kitab (müshəf) halına gətirdi. «Əlinin Quranı» və ya «Əlinin müshəfi» kimi tanınan həmin kitabın mətni həcmcə hazırki Quranla eyni idi; bunların arasında bircə hərf fərqi belə yoxdur. Yeganə fərq ayələrin düzülüş ardıcıllığındadır. Həzrət Əli (ə) bütün ayələri nazil olduqları ardıcıllıqla düzmüşdü. Amma Osman ibn Affanın zamanında indiki Quran tərtib olunanda böyük surələri əvvələ keçirib, qısa surələri axıra saxladılar. İmam Əli (ə) öz Quranının haşiyəsində (mətnin dövrəsində) ayələrin təfsirini də yazmışdı. Həmin Quran nüsxəsi Əhli-beytə məxsusdur, imamdan-imama ötürülür və hal-hazırda İmam Mehdinin (əc) hüzurundadır.



Burada bir məsələni də qeyd etmək lazımdır: Quranın təhrif olunduğu barədə hədislər yalnız şiə mənbələrində deyil, sünni mənbələrində də mövcuddur. İkinci xəlifə Ömər ibn Xəttabdan rəvayət edilən və Qurani-kərimin 1 milyon 127 min hərfdən ibarət olduğunu bildirən xəbər (halbuki, hazırki Qurani-kərimin hərflərinin sayı heç 350 minə çatmır ki, bu da yuxarıda göstərilən ədədin üçdən-bir hissəsindən də azdır), Qurani-kərimdə rəcm (daşqalaq etmə) cəzası və süd vermə hökmü barədə ayələrin vaxtilə mövcud olub, sonra Qurandan çıxarılması, Qurani-kərimdə əvvəllər «Həfd» və «Xəl» adlı iki əlavə surənin olması, Peyğəmbərin sağlığında «Əhzab» surəsinin 200 ayədən ibarət olub, Osman zamanında Quranın toplandığı vaxt ixtisar edilməsi haqqında rəvayətlər və s. (bax: «Sünənü İbn Macə», «Hüdud» kitabı, 2553-cü hədis; «Səhihül-Müslim», «Hüdud» kitabı, 4418-ci hədis və «Riza» kitabı, 3597-3598-ci hədislər; «Səhihi Buxari», «Etisam» kitabı, 7323-cü hədis; «Müsnədü Əhməd ibn Hənbəl», I, 47 və II, 40; «Təfsirül-Qurtubi», «Əhzab» surəsi təfsirinin girişi, XVII, 48). Bu qəbildən olan rəvayətlərin bir çoxunu şafei məzhəbli alim Əllamə Süyuti «əl-İtqan» kitabında toplamışdır. Bütün bu rəvayətlər də etibarsızdır və əhli-sünnə məzhəbinin məsələyə münasibəti ilə ziddiyyət təşkil edir. İslam aləmində hakim olan və bütün nüfuzlu alimlərin müdafiə etdikləri fikir isə bundan ibarətdir ki, Qurani-kərim təhrif edilməmişdir və hal-hazırda oxuduğumuz Quranın mətni Həzrət Mühəmmədə Peyğəmbərə (s) nazil olmuş Quranla eynidir..

# Müsəlmanların dünyanı dəyişdirən ən böyük 20 ixtirası

***İngiltərənin dünyaca məşhur The Independent qəzeti müsəlman ixtiraçıların Avropanı və dünyanı necə dəyişdirdiyini izah edən bir məlumat dərc edib. Həmin məlumatda müsəlmanların dünyanı dəyişdirən 20 icadına yer verilib. Müsəlmanların insanların həyatını dəyişdirən ən böyük 20 ixtirasını təqdim edir.***

## Qəhvə

Rəvayətə görə Cənubi Efiopiyanın Kaffa bölgəsində Xalid adlı bir ərəb çoban qoyun otararkən görüb ki, heyvanları bir bitkini yedikdən sonra canlanır. Xalid də bu bitkidən yığaraq qaynadıb içir.

İlk dəfə gecələr oyanıq qalmaq, çalışmaq ya da dua etmək istəyən Sufi alimlər tərəfindən istifadə edildiyi təxmin edilən qəhvə ancaq 1645-ci ildə Avropaya çatıb. İngiltərənin paytaxtı Londonda ilk qəhvəxananı isə bir türk açıb.

## Gözün sirri

Qədim Yunanıstanda insanlar gözümüzdən şüaların çıxdığını və bunun sayəsində görə bildiyimizi düşünürmüşlər. Amma yunanların bu təxminini ilk dəfə müsəlmanlar yalana çıxarıb. İlk dəfə işığın göz içinə girərkən qırılması nəticəsində dünyanı gördüyünü kəşf edən şəxs 10-cu əsrdə yaşamış bir müsəlman alim - İbn Haytam olub. Qaranlıq otaqda işıq oyunlarıyla görünüş əldə etməyi ilk olaraq İbn Haytam kəşf edib.

## Stolüstü oyun

Şahmatın bu gün oynanan forması ilk dəfə İranda icad edilib və santranç adlandırılıb. Sonralar bu oyun Qərbə də yayılıb. 10-cu əsrdə ispanlar Əməvilər sülaləsi vasitəsilə şahmatla tanış olublar.

## Uçmaq

Rayt qardaşlarının ilk uçma sınağından hələ 1000 il əvvəl, 852-ci ildə Abbas İbn Firnas adlı bir ərəb Kordobadakı məscidin minarəsindən taxtadan düzəltdiyi qanadlarla atlanıb. O, uçmağa ümid edirmiş, təbii uça bilməyib. Amma taxta qanadların yaratdığı paraşüt təsiri sayəsində yüngül bir şəkildə yerə düşə bilib. 875-ci ildə 70 yaşına çatan Abbas İbn Firnas bu dəfə ipək və qartal tüklərindən hazırladığı qanadlarla bir uçurumdan atlanıb 10 dəqiqəyə qədər havada qalmağı bacarıb.

## Sabun

Səlib yürüşlərindəki xristian əsgərləri görən müsəlmanları dəhşətə salan şey onların təcavüzkarlığı deyil, avropalıların çox nadir hallarda çimmələri və bədənlərinin çox pis iy verməsi imiş.

Qədim Misirdə də sabun varmış, amma ərəblər bitki yağlarını qarışdıraraq müasir sabunu meydana gətiriblər. Şampun da bir ərəb icadıdır. Şampun ilk dəfə İngiltərəyə 1759-cu ildə gedib çatıb.

## Mayelərin sirri

Mayeləri qaynama dərəcələrinə görə bir-birindən ayırmaq da ilk dəfə müsəlman elm adamı Cabir ibn Hayyan tərəfindən kəşf edilib. Etdiyi təcrübələrlə o, müasir kimyanın qurucusu sayılır.



## Mil sistemi

Düz hərəkəti dönmə hərəkətə çevirən mil sistemini də ilk dəfə bir İslam bilgili olan Əl Ciziri kəşf edib. Nəticədə daxildən qızdırılan mühərrikin icadına qədər bütün dünyadakı mexaniki cihazların təməlini bu müsəlman meydana gətirib.

## Paltar

Paltarların parçası və astarının arasının yapışdırılması da ilk dəfə Orta Şərqdə icad edilib.

## Qübbə və kəmər şəkilli tikililər

Qübbə və kəmər şəklindəki tikililər İslam arxitekturasının məhsuludur. Xüsusilə qübbə arxitekturası mövzusundakı texnikalar Avropaya İslam alimləri vasitəsilə daşınıb.

İngiltərə kralı V Henrinin sarayının memarı da bir müsəlman olub.

## Cərrahi alətlər

Dünyada bu gün istifadə edilən cərrahi alətlərin son dizaynları əməvilərdən Əl Zehraviyə məxsusdur. Aralarında neştər, sümük mişarları, göz əməliyyatı qayçılarının da olduğu 200 cərrahi alət müasir tibbdə də istifadə edilir.

Heyvan bağırsaqlarından hazırladığı iplə tikdiyi tikişlərin öz-özünə itdiyini də Zehravi kəşf edib. O, həm də heyvan bağırsaqlarından ilk kapsula icad edib. 13-cü əsrdə isə ibn Nafis də dövran sistemini təyin edib.

## Yel dəyirmanı

Yel dəyirmanı ilk olaraq İranda kəşf edilib və ərəb ölkələrində də inkişaf etdirilib. Avropada ilk külək dəyirmanı bundan tam 500 il sonra istifadə edilməyə başlanıb.

## Peyvənd

İlk peyvənd də İslam dünyasında icad edilib. Çiçək xəstəliyinin peyvəndinin Avropada istifadə edilməsindən 50 il əvvəl Osmanlıdakı uşaqlar çiçək xəstəliyinə qarşı peyvənd edilirmiş.

## Mürəkkəbli qələm

İlk mürəkkəbli qələm də 953-cü ildə əllərini mürəkkəblə çirklətməkdən bezən Misir sultanının istəyi ilə icad edilib.

## Alqoritm

Alogratm və triqonometriya da İslam dünyasından Avropaya keçib.



## Bir qabda üç növ yemək

Əli İbni Nafi İraqdan İspaniyanın Kordoba şəhərinə gəldiyində Avropa ilk dəfə bir payda üç növ yemək mədəniyyətiylə tanış olub. İbni Nafinin menyüsü şorba, ardından balıq ya da ət, onun da ardından meyvə və çərəzdən ibarət olub. Avropaya ilk şüşə stəkanlar da bu dövrdə gəlib.

## Xalça

Xalça da müsəlmanlar tərəfindən Avropaya daşınıb. Xalça toxumasındakı texnikaların az qala bütünü də avropalılar tərəfindən müsəlmanlardan alınıb.

## Çek

Müasir bank çekinin mənşəyi də ərəblərdə istifadə edilən və "sak" olaraq adlandırılan bir kağız olub.

Ərəblərdə köhnədən karvan soyğunları çox olunca, uzaq yerlərdəki mallarını insanlar kiçik yazılı kağızlarla satmağa başlayıb. 9-cu əsrdə müsəlman bir tacir Çində əlindəki "sak"ları istifadə edə bilirdi.

## Dünya və Günəş

9-cu əsrdə çox sayda İslam alimi dünyanın - Yerin Günəş ətrafında fırlandığını söyləyirmiş. Yəni Qaliloe Qalileydən tam 500 il əvvəl. O zaman təxmini ölçülərə görə dünyanın diametri 40 min 253 kilometr idi. (gerçək ölçüdən 200 kilometr az).

## Barıt

İlk dəfə barıtı hərbi məqsədlə ərəblər istifadə ediblər. Xüsusilə Səlib yürüşlərində istifadə edilən raket bənzərli partlayıcılar xristian əsgərlər arasında böyük dəhşət yaradırmış.

## Bağça dekorasiyası

Orta əsrlər Avropasında bir çox evin bağçasında bitkilər yetişdirilirdi, ancaq bir bağça mədəniyyəti yox idi. Hər şey qarmaqarışıq idi. Bağça dekorasiyası və səliqə-səhmanı Avropaya İslam dünyasından daşınıb.

# İBRƏTDOLU HEKAYƏLƏR

## İbrətamiz bir dərs

Böyük əmirlərdən biri mahir bir həkimi camaatı pulsuz müalicə etmək üçün Mədinəyə göndərdi. Həkim bir neçə müddət Mədinədə qaldı. Lakin ona müraciət edən çox az oldu (Bəzən heç müraciət edən olmurdu). Bu məsələ onu çox təəccübləndirdi. Peyğəmbərin (s) yanına gəlib, şikayətləndi. Həzrət buyurdu: «Bu şəhər həmişə belədir, çünki mən onlara tapşırmışam: «Tam acmayınca yeməyə əl uzatmayın. Tam doymamış əlinizi süfrədən çəkin». Həkim dedi: «Siz bu bir neçə sözdən ibarət tapşırığınızla bütün tibb və səhiyyə qanunlarını bəyan etmisiniz. Elə buna görə də, bu şəhərin əhalisi bu sadə üsulun vasitəsilə xəstələnmirlər».

Əmirəl-möminin Əli (ə) yeməyə başlamaq haqqında çox mühüm bir göstəriş verir: «Yeməyə duzla başlayın. Əgər camaat bu işin faydasını bilsəydi, ondan təcrübə olunmuş bir dərman kimi istifadə edərdi». (Vəsail, 16-cı cild, səh-520.)

Rəsulullah (s) isti su içməyi qadağan etmişdir və «Allah öz bərəkətini hərarəti sönmüş yeməyə bəxş etmişdir»-deyə buyurmuşdur. Bundan başqa, Peyğəmbər isti yeməyi soyutmaq üçün üfürməyi də qadağan etmişdir. (Həmən mənbə, səh-518.)

Müqəddəs İslam dinində hər hansı bir heyvanın (canlının) insanın yemək yediyini gördüyü halda ona etinasızlıq etməsi qəti şəkildə qadağan olunmuşdur.

Nəcih deyir: «Həzrət Müctəbanı gördüm. Yemək yeyirdi və qarşısında bir it dayanmışdı. Bir tikə özü yeyir, bir tikə isə itə verirdi. Ərz etdim: «Nə üçün iti süfrə başından qovmursunuz?» İmam buyurdu: «Həqiqətən, mən yemək yeyəndə hər hansı bir canlının məni görməsinə və ona etinasızlıq göstərməyə Allahdan həya edirəm». (Mizanül-hikmə, 1-ci cild, səh-125.)

Bəli, yemək də lazımdır, yedizdirmək də. Yemək bədən üçün zəruridir. Yedizdirmək isə əxlaqi bir vəzifə kimi Haqqın lütfünə səbəb olur. Bu məsələyə etinasızlıq insafdan uzaqdır.

İmam Müctəba (ə) buyurur: «Qidalanarkən 12 şeyə diqqət yetirmək lazımdır: neməti və onun xaliqini tanımağa, ruzi məsələsində Haqqın qədərinə razı olmağa, yeməyə «bismillah»la başlamağa, yeməkdən sonra şükür etməyə, yeməkdən öncə dəstəmaz almağa, yemək yeyərkən sol tərəfi üstə əyləşməyə, üç barmaqla yeməyə, barmaqları yalamağa, süfrədə olanlardan yeməyə, tikəni az-az götürməyə, yaxşı çeynəməyə və süfrə arxasında əyləşənlərə az baxmağa».

(Vəsail, 16-cı cild, səh-539.)

İmam Rza (ə) buyurur: «Gecə az yeyin. Bu sizin kökəlməməyinizə kömək edər».

(Bihar, 62-ci cild, səh-324.)

Rəsulullah buyurur: «Allah dərgahında ibadəti çox, yeyib-içməyi, yatmağı az olan şəxs Allah mələklərinin rəğbətini qazanır». (Mizanül-hikmə, 1-ci cild, səh-116.)

Digər bir hədisdə isə belə buyurur: «Yeyib-içmək, geyinmək məsələlərində bədəninizə və qarnınıza qarşı insaflı olun. Həqiqətən, bu insaf peyğəmbərliyin bir hissəsidir». (Həmən mənbə.)

Əli (ə) buyurur: «Az yemək insanın böyüklüyü və sağlamlığın davamlılığıdır». (Həmən mənbə.)

Digər bir hədisdə isə buyurur: «Allah-təala bəndəsinin xeyrini istədikdə, ona az danışmaq, az yemək və az yatmağı nəsib edir». (Həmən mənbə.)

Ailədə digər diqqətəlayiq məsələlərdən biri də siqaret, qəlyan, narkotik maddələr və s. kimi insan orqanizminə köklü ziyan vuran ünsürlərdən çəkinməkdir.

Bəzi fəqihlərin fikrincə, tüstü ifraz edən maddələr bütünlüklə haramdır. Çünki onlar tədricən sağlamlığı pozur və bəzən də ictimai və əxlaqi pozğunluqlara gətirib çıxarır.

İslamda qadağan qoyulmuş məsələlərdən biri də müştərək daraq, qətfə və diş fırçasından istifadə etməkdir.

Ümidvarıq ki, ailə üzvləri, xüsusilə də ailə başçıları sağlamlıqlarını qorumaq üçün belə məsələlərə əhəmiyyət verəcəklər. Bütün bunlar İslamın göstərişləri olduğu üçün onlara riayət etmək ibadət, əks təqdirdə isə bəyənilməz sayılır.

# Ateist həkimin sonu

O, şəhərdə tanınmış həkim idi. Vaxtilə çox adama əl tutmuşdu. Maddi vəziyyəti aşağı olan xəstələrə çox zaman öz pulu ilə dərman alardı. Dəfələrlə olub ki, xəstəxanaya gələ bilməyən xəstələrin evinə özü gedib təmənnasız müalicə etmişdi. Sənətini sevdiyi üçün sonadək bu adı- həkim adını şərəflə daşıdı. Ömrünün 35 ilini xəstələrə sağlam həyat bəxş etməklə keçirdi. Artıq yaşı altmışı haqlayıb. İndi o özü xəstədir. Həm də çarəsiz xəstə. Böyrəkləri fəaliyyətini dayandırıb. Müalicə yalnız həyatını bir neçə il uzada bilər. Üç-dörd il, uzağı beş il ömrü qalıb.

Onu tanıyanlardan bir kimsə deyə bilməz ki, Doktor (tanışları ona sadəcə belə müraciət edirlər) nə zamansa onun xətrinə dəyib. Uşaqla uşaq, böyüklə böyük idi. Xəstəliyi haqqında kim eşidirdisə göz yaşını saxlaya bilmirdi. Fərqi yoxdur, uzaq tanışdır, ya çoxdankı xəstəsi. Müsbət insani keyfiyyətləri çox idi. Ən əsası da etdiyi yaxşılıqları nə xatırlatmaz, nə də evdə deməzdi. Hətta ailəsi belə onun xeyirxah əməlləri haqda yad adamlardan duyardılar.

Bir sözlə Doktor bir başqa aləm idi. Amma... Heyf ki, bütün həyatı boyu Allahı inkar etmiş, dindən tam uzaq bir adamdı. Dinə mövhumat, uydurma bir inanc kimi baxırdı. Namaz qılanlara, xüsusən gənclərə məsləhət görərdi ki, ondansa elm öyrənsinlər. Boş-boş işlərlə məşğul olmasınlar.

Bu xəstəlik də vaxt tapdı gəlməyə. Hələ indiyədək nəvələriylə istədiyi kimi zaman keçirməmiş, özünə, ailəsinə vaxt ayıra bilməmişdi. İş vaxtı bitəndən sonra da bir neçə saat xəstəxanada qalardı. Öz şəxsi həyatı, ailəsi, sevdikləri haqda isə yalnız indi, amansız xəstəlik onu yaxalayanda düşünməyə başlamışdı. Hamıya məlumdur ki, həkimlər ağır xəstələri qorxutmaq istəmədiyi üçün ona yalan danışmağa məcbur olar, onları tez sağalacaqlarına inandırmağa çalışırlar. Bu, bütün həkimlərin adətidir. Axı xəstə ancaq ona inanır. Hamıya ümid verən (bəzən belə ümidlər sayəsində xəstə həkimin diaqnozundakı vaxtdan da daha çox yaşayardı) həkimlərin özlərini isə inandırmaq ən çətin məsələ idi. Xəstəliyi haqda eşidən gündən ölümə, uzun bir səfərə gedirmiş kimi sakitcə hazırlaşırdı. Nə bir qorxu, nə təəssüf, nə üsyan vardı içində. Sadəcə ailəsiylə daha çox birlikdə olmadıqlarına, nəvələrindən hələ də doymadığına üzülürdü. Başqa heç nəyə.

Doktor əməliyyatdan az sonra evlərinin yaxınlığındakı dini kitablar satılan mağazaya tez-tez getməyə başlamışdı. Yaxınları, qonşuları, onun inancsız biri olduğunu bilənlər ondakı dəyişikliyi anlaya bilmirdilər. Budur, yenə gəlib. Həmişəki kimi kitabları bir-bir açıb baxır. Sanki nəyisə axtarır. Nə axtardığını hələ də bilmirmiş kimi. Nəhayət seçdiyi kitablardan birini, nisbətən daha qalın olanını, ərəbcə yazılı kitabı nəzərdən keçirir, axtardığı kitabın məhz o olduğuna bir daha əmin olduqdan sonra bu kitabı almaq istədiyini satıcıya bildirir. Kitabı aldıqdan sonra da mağazadan çıxmağa tələsmir, kimisə gözləyirmiş kimi gözü qapıya zillənmişdi. Ayaq üstə gözləməkdən ayaqları sızlayırdı. Onun xəstə olduğunu bilən satıcı qız ona əyləşməyə stul verdi. Stulunu qapıya yaxın bir yerə çəkib əyləşdi. Kitabın pulunu verib alsa da vərəqləməyə ehtiyat edirdi. Axı bu, adi kitab deyildi. Bu, “Quran” idi!... Həyatının 59 ilini ateist olaraq yaşadı. Bəs indi niyə fikrindən dönüb? Ölüm anı yaxınlaşdığı üçünmü? Cəhənnəm qorxusuylamı? Xeyr, o ateist olduğu üçün Cəhənnəmin varlığına, ümumiyyətlə ölümdən sonrakı həyata inanmırdı ki, qorxaydı da. Onun inancını, yanlış fikirlərini alt-üst edən, bütün varlığını sarsıdan, həyatını tamamilə dəyişən başqa şey idi. Bir neçə gün əvvəl kənddə yaşayan anası onunla əlaqə saxlaya bilməyincə bacısına zəng etmiş və onun sözlərini olduğu kimi oğluna çatdırmağı xahiş etmişdi. Doktorun anası yuxusunda çoxdan rəhmətə getmiş ərini (Doktorun atasını) görübmüş. Əri ona belə deyib: - “Get, oğlumuza de Allah da var, Axirət də var. Mən inandığım kimi o da inansın. Bunlar heç də uydurma deyil, həqiqətdir. Nə qədər gec deyil, inansın. Əbədi həyat burdadır.” Anasının yuxusunu eşidəndən sonra qəlbində Allaha qarşı əvvəllər duymadığı qəribə hisslər, yaxınlıq duydu. Xəstəliyi haqda ətraflı məlumatı olduğundan onu da anlayırdı ki, zamanı çox azdır. Nə qədər çox gecikməyib Ona tərəf bir addım atmalıdır. Bu dünyanı belə tərk edə bilməz. Elə o gündən tez-tez bu dini mağazaya gəlirdi. Axtardığı kitabı nəhayət tapdı. Amma gözlədiyi adam hələ gəlib çıxmamışdı. Kimi gözləyirdi? Hələ özü də bilmirdi. Bircə ərəbcə yazılı olan bu kitabı, “Quran”ı ona öyrədə bilən birini tapsaydı. “Quran” kitabını aldığı gündən bəri hər dəfə bura gələndə kitabı da özüylə gətirərdi. Ona bu kitabı öyrədəcək bir adamın mütləq bura gələcəyinə o qədər əmin idi ki. Yenə həmin günlərdən birində ora gələn bir qadının satıcı qızla söhbətindən Quran dərsi dediyini eşitdi. Gözlədiyi adam o idi! Qadına yaxınlaşdı, qısa və konkret istəyini bildirdi:

- Mənə Quran oxumağı öyrədərsinizmi?

Qadın:

- Əlbəttə öyrədərəm. Niyə də yox?

Doktor:

- Sizə zəhmət vermək istəmirəm. Elə bu mağazaya hər dəfə yolunuz düşəndə bir az öyrətsəniz bəsdir. Vaxtınızı çox almaram. Doktor ağır-ağır, sözlərinə xeyli ara verə-verə dedi.

Doktorla Quran müəlliminin bu qısa dialoqundan sonra dərhal dərslərə keçdilər. İlk həftələrdə elə oradaca, mağazada, hərdən bir məşğul olsalar da, sonra dərsləri doktorun yaxınlıqdakı evində davam etdirdilər. Həmin müəllim sonralar etiraf edirdi ki, Doktor dərsləri onun tələbələri içində, hətta ən gənc tələbələrindən də daha tez qavrayır, yüksək intellekti, diqqəti, yaddaşıyla onu heyran edirdi. Hətta bir neçə dəfə müəllimin diqqətindən qaçan kiçik “səhvləri” belə düzəltmişdi. Beləliklə də “Quranı” ən tez oxuyub başa vuran ilk və yeganə tələbəsi o oldu. Nəhayət dərslər bitmiş, Doktorla müəllim sağollaşıb, halallaşıb ayrıldılar. Bir neçə gün sonra həmin mağazaya sifariş etdiyi kitabın gəlib-gəlməməsi haqda maraqlanmaq üçün yenidən gələn müəllim satıcı qızı görmədi. Onu bir gənc əvəz edirdi. Satıcı qızın harda olduğunu soruşanda eşitdiyi cavab onu sarsıtdı: - “Doktorun yas mərasimindədir...”

Bu xəbərdən çox üzüldü. Bir neçə ay əvvələdək Doktor onun üçün tamam yad bir insan olsa da son üç ayı demək olar həftənin yarısını ünsiyyətdə olurdular. Bir neçə gün əvvələdək münasibətdə olduğu insanın qəfil ölüm xəbərini alması onu elə təsirləndirdi ki, göz yaşlarını saxlaya bilmədi. Doktorla ayrıldıqları günkü söhbətlərini ona atasının yuxusu barədə danışdığını xatırladı. ”Qəribədir, deyilmi? Həkimlərin diaqnozuna görə Doktor hələ bir neçə il də yaşaya bilərdi. Amma o bir neçə illik ömrünü üç aya sığışdırdı, haqq yoluna gəldi. ”Quranı” öyrəndi və dünyanı tərk etdi. Gözəl Allahımız bir ateisti məhz onun əliylə İslama gətirmişdi. Onu təsirləndirən də daha çox bu idi. Doktor onun vasitəsilə ”Quranı” öyrəndi, namaza başladı. Və bir müsəlman olaraq bu dünyanı tərk etdi. Həyatının 59 ilini kafir olaraq yaşadı, müsəlman olaraqsa getdi.

Həqiqətən də Allah bütün bəndələrini nəzərində saxlayır. Hətta dinsizləri belə. Savadlı həkim olmaqla yanaşı, həm də xeyirxah, xeyriyyəçi insan kimi tanınan Doktorun yaxşılıqlarına qarşılıq olaraq onu bu dünyadan müsəlman olaraq köçürdü. Şərəflə yaşadığı kimi ölümü də şərəfli oldu.

# MALİK ƏŞTƏR NƏXƏİ

***Malik Əştər Nəxəi adı ilə tanınan Malik ibn Yəcus Nəxəi Yəmənin Məzhəc qəbiləsinin Nəxə nəslindəndir. Malik Əştər İmam Əlinin (ə) xüsusi köməkçilərindən və səhabələrindən biridir. O, böyük ordu sərkərdəsi və şücaətli şəxslərdən idi. Malik Əştərin Peyğəmbərin (s) besətindən əvvəl dünyaya gəlməsi tarixi mənbələrdə qeyd olunur. Peyğəmbərin (s) nümayəndələrinin Yəmənə gəlməsindən öncə Malikin həyatı barədə əldə heç bir məlumat yoxdur.***

Bəzi mənbələrdə Malik Əştər Peyğəmbərin (s) ömrünün sonlarında İslam dinini qəbul etməsi və raşidi xəlifələrinin zamanında Şama hicrət etməsi qeyd olunub. Lakin onun tabein olduğu bildirilir. Malik qəsbkar xəlifələrin bidətlərilə daim mübarizə aparırdı. O, Qadisiyyə müharibəsindən sonra Kufədə məskunlaşdı. Orada nüfuzlu şəxslərdən olduğu üçün Osmanın xilafəti zamanında Əməvi hakimlərinin zülmünə qarşı çıxaraq, mücahidləri müdafiə edib. Malik alim və zahid bir şəxsiyyət idi. Həyatını fəqirliklə keçirirdi.

Malik öz tayfasına başçılıq edirdi. Öz haqlarını əldə etmək üçün Kufənin bir dəstə camaatı Osmanın yanına getdi. Osmanın Kufədə vali təyin etdiyi Səid ibn As onun əmri ilə Maliki doqquz nəfərlə birlikdə Şama sürgün etdi. Malik Kufəyə qayıtdıqdan sonra yenidən Həmsə sürgün edildi.

Malik camaatı İmam Əliyə (ə) beyət etməyə çağırırdı. Sonralar Siffeyn, Cəməl və Nəhrəvan döyüşlərində İmam Əli (ə) ilə birlikdə olub. Onun bu müharibələrdə göstərdiyi qəhrəmanlıqlar və fədakarlıqlar tarix səhifələrində qeyd olunub. Siffeyn müharibəsində Şam əhlinin ordusunu yararaq özünü Muaviyənin xeyməsinə çatdırdıqda, bir qrup insanın avamlığı nəticəsində müharibə dayandırıldı və məsələ həkəmiyyətlə bitdi.

Malik kafirlərlə döyüşdə də böyük rəşadətlər göstərib. O, Yərmuk vaqiəsində iştirak edərkən gözündən yara almışdı. Buna görə də ona əştər deyirdilər. Yəni gözünün kipriyi dartılmış şəxs.

İmam (ə) Maliki Misirə göndərərkən oranın əhli üçün bir məktub yazdı. İmam Əli (ə) bu məktubda Həzrət Peyğəmbərdən (s) sonra başına gələnlərin bir hissəsini açıqlayıb.

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Nöqsan sifətlərdən pak və uzaq olan Allah Muhəmmədi (s) bəşəriyyəti (ilahi əzabdan) qorxudan və (insanların nicatı üçün Allah tərəfindən göndərilmiş) peyğəmbərlərə şahid kimi göndərmişdir. O Həzrət (s) dünyasını dəyişdikdən sonra müsəlmanlar xilafət barəsində çəkişmə və qalmaqala düşdülər.

Allaha and olsun ki, qəlbimə gəlmir və fikrimdən belə keçmirdi ki, ərəblər o Həzrətdən (s) sonra xilafəti



onun Əhli-Beytindən (ə) başqa birinə həvalə edəcək və (bütün tapşırıqlara və məni Qədir-Xumda və digər yerlərdə aşkar şəkildə xilafətə təyin etməsinə baxmayaraq,) o Həzrətdən sonra onu məndən əsirgəyəcəklər. (İmam (ə) keçmiş və gələcəyi bilir. Buna görə «xilafəti başqalarına həvalə edə-cəkləri fikrimdən belə keçmirdi» cümləsindən məqsəd budur ki, Peyğəmbərin göstərişinin əksinə hərəkət ediləcəyinə heç kəs inanmazdı və bu iş Həzrət Peyğəmbərin səhabələri barəsində təsəvvür edilməz idi) Məni (yəni, hər bir ağıllı və agah şəxsi) camaatın beyət etmək üçün filankəsə (Əbu Bəkrə) tərəf tələsmələrindən başqa bir şey narahat etmədi (və ya təəccübləndirmədi). Beləliklə, (həmin vəziyyətdə) əl saxladım (onları öz ixtiyarlarına buraxdım).

Nəticədə camaatın bir dəstəsinin dindən dönərək mürtəd olduqlarını və İslamdan qayıdaraq Muhəmmədin (s) dinini məhv etmək istədiklərini gördüm. Qorxdum ki, İslam və müsəlmanların

köməyinə başlamasam, onda nöqsan və dağıntı (yaranmasını) görərəm və onun müsibət və kədəri mənim üçün, nəticəsi (susuz adamın su sandığı) ilğım kimi (yaxınlaşanda) yoxa çıxan və ya bulud kimi səpələnən bir neçə günlük müvəqqəti mal olan sizə hakimlik və vilayəti əldən çıxarmaqdan daha ağır olar.

Buna görə də həmin hadisə və dağıdıcı hərəkətlərin arasında ayağa qalxdım (İslam və müsəlmanlara kömək edərək onları məəttəlçilik və çaşqınlıqdan qurtardım). Nəticədə əyrilik və təxribatların qarşısı alındı və onlar məhv oldular, din (mürtəd və dağıdıcıların fitnələrindən) sakitlik taparaq (nigarançılıqdan) qurtulub öz yerində qərar tutdu. (Dinin əsasını qorumaq üçün mənim haqqımı qəsb edənlərlə birgə addımlayaraq razılaşdım. Osmandan sonra zahiri xilafəti qəbul etməyimin səbəbi də dinin işlərinin nizam-intizamının pozulmaması və Həzrət Peyğəmbərin hökmlərinin bərqərar qalması idi.)

Tarixin nəql etdiyinə əsasən bu xəbər Muaviyəyə çatdıqda, o, Misir yolu üzərindəki kəndlərin böyüklərindən birinə xəbər göndərdi ki, əgər Malik Əştəri zəhərləsən, mən 20 illik xəracı səndən almayacağam.

Malik ora çatdıqda kəndli onun balı sevdiyini bildiyi üçün bir miqdar balı zəhərləyərək onun üçün gətirdi. Balın xüsusiyyətləri və faydalarından danışdı. Malik həmin baldan yedi. Elə həmin yolda Malik zəhərin təsirindən dünyasını dəyişdi. Bəzilərinin nəql etdiyinə əsasən Malik Qulzum adlı yerdə dünyasını dəyişib. Onu Osmanın Nafe adlı bir qulamının zəhərlədiyi bildirilir.

İmam Əli (ə) Malik barəsində belə buyurur: «Mən Peyğəmbər (s) üçün kim idimsə, Malik də mənim üçün o cürdür.» Ey kaş sizin aranızda Malik kimi iki nəfər və ya bir nəfər daha olaydı.

Malik Əştərin şəhadət xəbəri İmam Əliyə (ə) çatdıqda çox kədərləndi. Ona xitabən belə buyurdu: Sənin ölümün bir dünyanı kədərləndirdi, digər dünyanı sevindirdi.

Sonda əziz oxuculara tövsiyəmiz budur ki, Nəhcül-bəlağədə Malik Əştərin əhdnaməsi adı ilə məşhurlaşmış İmam Əlinin (ə) Malikə olan məktubunu diqqətlə mütaliə etsinlər.

**Qeyd: Həmin əhdnamə Azərbaycan dilinə tərcümə olunan Nəhcü-lbəlağənin 53-cü məktubudur.**

# *Olmaz idi*

*Olmasaydı Əli, din içrə səfa olmaz idi.*
*Murtəzasız nə səfa ruha qida olmaz idi.*

*O Əlidir bizə göstərdi həqiqət yolunu,*
*Yoxsa ondan səvayi ragi-huda olmaz idi*

*Əliyə söylədi mizani-ədalət o Nəbi,*
*Əli olmazsa ədalətli-qəza olmaz idi.*

*Rəxtixabında yatıbdır o Peyğəmbərdən ötür,*
*Ki Əli tək bu işə kimsə razı olmaz idi.*

*Zülfüqar ilə Əmr ibn Əbdəvüd başına,*
*Vurmasaydı Əli, küfr-əhli gəda olmaz idi.*

*Bir əlilə qoparıb cəngidə Xeybər qapısın,*
*Əlisiz kimsədə bil öylə şüca olmaz idi.*

*Vurduğu zərbəyə xatir o Əli şanində,*
*"La fəta" kəlməsi göylərdə səda olmaz idi.*

*Vurmasaydı yerə yüzlərcə o aslan kürəyin,*
*Adı dillərdə bu gün şiri-Xuda olmaz idi.*

*Verdi ənqüştərini sailə əsnayi-namaz,*
*Kimsə əshabidə bir böylə səxa olmaz idi.*

*Danmasaydı Əlinin haqqını nadanlar əgər,*
*İndi din içrə inan bircə xəta olmaz idi.*

*Uymasaydı o zaman munkiri-mövlaya çoxu,*
*İndi Mövlayi-Əlidən o cüda olmaz idi.*

*Hansı millət ki, Əlisizdi ona yox çarə,*
*Olara indi düçar dərdi bəla olmaz idi.*

*Cahida dərk edə bilsəydik Əli həqqini biz,*
*Əlidən qeyri zikir dildə dua olmaz idi.*

*Hacı Yaşar Cahid*

# İbn Xəldun





*İslam düşüncəsinin önəmli nümayəndələrindən olan İbn Xəldun XIV-XV əsrlərdə yaşamışdır. O, 1332-ci ildə Tunisdə anadan olub. Onun həyatı çox maraqlı və təlatümlü keçib. Gənc yaşlarından elmə maraq göstərən Xəldun dövrün alimlərinin elmi söhbətlərinə qulaq asmışdır.*

*Elmi təfəkkürü və idarə etmə qabiliyyəti zəmanəsinin dövlət adamlarının diqqətini cəlb edib və ona dövlət qulluğu vəzifələri təklif olunub. Uzun müddət Mərakeş və Becayə əmrlərinin vəziri vəzifəsində çalışıb. Bununla bərabər bir neçə dövlətdə elçi olaraq çalışan İbn Xəldun bu vəzifənin də öhdəsindən çox uğurla gəlmişdir. Elçilik dövrünün ən vacib mərhələsi Teymurilər dövlətinin başçısı Əmir Teymurun sarayında keçmişdir.*

*Siyasi karyerasını başa vurduqdan sonra yeni bir elm yaratmaq fikrinə düşən İbn Xəldun tarixlə əlaqədar 7 cildlik əsərinin 1-ci cildi olan məhşur "Müqəddimə"sində tarix elminin mahiyyətini, məqsədini və faydasını möhtəşəm bir şəkildə izah etmişdir. O elm aləmində məhşur "Müqəddimə" əsəri ilə tanınmışdır.*

*O bu əsəri nə az, nə çox düz 4 il ərzində tamamlamışdır. Mütəfəkkir bu əsərində tarixi hadisələri ictimai, etnik, mədəni, siyasi, iqtisadi, coğrafi və bioloji şərtlərlə əlaqələndirmişdir. Bu əsərinə görə bir çox elm adamı müasir tarixi fəlsəfənin və müasir sosiologiya elminin yaranmasını onun adı ilə bağlayırlar.*

*Onun əsərləri qərb dillərinə tərcümə edilməsindən sonra çox böyük şöhrət qazanmasına səbəb olmuşdur. Yaradıcılığı çoxları tərəfindən qəbul edilən İbn Xəldun sadəcə şərqdə deyil, qərbdə də böyük nüfuza malik olmuşdur. Professor K. Filip Hitti İbn Xəldunun çatdığı üstün səviyyəsini belə izah edir; "Heç bir qərbli elm adamı İbn Xəldundan əvvəl bu şəkildə hər şeyi əhatə edən geniş bir tarix fikrini üzə çıxarmamışdır.*

*İndiyə kimi aparılan araşdırmalara görə bütün elm adamlarının həmfikir olduğu şey, İbn Xəldun yalnız İslam aləminin yetişdirdiyi ən böyük bir tarix fəlsəfəçisi deyil, gəlib-getmiş və bundan sonra gələcək*

olan bu barədə bütün elm adamlarının ən ucası olmuşdur”.

İbn Xəlduna qədər heç kim tarix fəlsəfəsini yazmamışdır. Tarixi hekayə kimi qəbul edirdilər. İbn Xəldun tarixin fəlsəfəsi olduğunu irəli sürmüşdür.

Tarixin bir elm olduğunu üzə çıxaran, onun qanunlarını açıqlayan İbn Xəldun tarixi nağıl və hekayə olmaqdan çıxarmışdır. O, bu elmin məqsədini “ictimai həyatı öyrənmək” olaraq qəbul etmişdir.

Şərqin Mönteskyüsü adlandırılan İbn Xəldun yazdıqları əsərləri və nəzəriyyələri ilə ölümündən sonra həyatı və yaradıcılığı uzun illər boyu araşdırılmışdır.

İbn Xəldun tarix fəlsəfəsi və siyasi fəlsəfə sahəsində təkcə ərəblərin deyil, eyni zamanda bütün dünyanın ən böyük simalarından biridir. O, həm də sosiologiya elminin banisi sayılır.

Müasir sosiologiyanın bir sıra terminləri, hətta sivilizasiya haqqında təlimin prinsipləri onun yaradılığında sistemli şəkildə tədqiq edilmişdir. Bu təlim İslam düşüncəsi ilə Qərb düşüncəsi arasında bir körpü rolunu oynamışdır.



# Saleh və fasiqin aqibəti

Bir qadının iki oğlu var idi. Onların biri fasiq, o birisi isə saleh və zahid idi. Saleh övlad xəstələnib, vəfat etdi. Hərçənd ki, hər ana oğlunu əldən verəndə ah-nalə edir. Amma onun anası ah-nalə etmədi.Təsadüfən, o biri övladı da xəstələndi və can verən halda gördü ki, anası ahu-zar edir. Anasına dedi: Niyə görə qardaşımın saleh olmasına baxmayaraq, onun ölümünə mənim ölümüm qədər kədərlənmədin? Ana dedi: Çünki sənin saleh əməlin yoxdur. Ona görə də qorxuram ki, pis əməllərinə görə əzaba düçar olasan.Oğlu dedi: Ey ana! Qəmgin olma, çünki, mən, inşaallah cənnət əhli olacağam. Anası soruşdu: Bu necə ola bilər? Dedi: Çünki sən yalnız məni doqquz ay qarnında gəzdirib, iki il mənə süd vermisən bu qədər narahatsan və mənə ürəyin yanır. Gör, onda mənim Xaliqim olan Allah nə qədər mənim fikrimdədir! O vəfat etdi. Anası onu yuxuda gördü. O, çox şad idi.Ondan bunun səbəbini soruşdular. O, dedi: Mənim ALLAHın rəhmətinə ümidim olduğuna görə bağışlandım. ..

# TAC MAHAL



*Tac-Mahal ideal zahiri simetriyası ilə insanı heyrətə gətirir. Məbədin interyeri mozaik işlərin zərifliyi, eyni zamanda ağ mərmərin qırmızı, yaşıl və göy işıq saçan əqiq heliotrop və yaşma kimi yarıqiymətli daşlarla bəzədilməsi ilə göz oxşayır.*

**Dünyanın əsrarəngiz və əvəzsiz möcüzələrindən biri olan Tac Mahal öz füsünkar gözəlliyi və sevgi simvolunu əks etdirdiyinə görə dillər əzbərinə çevrilmişdi. Bunu da etiraf etməliyik ki, hər il sevgi abidəsini görməyə gələn turistlər onun möhtəşəmliyi qarşısında sözsüz qalırlar. Tac Mahalın möcüzəyə çevrilməsinin səbəbi ilk öncə onun bir insana olan vurğunluğunu daş üzərinə köçürülüb əsirlər boyu unudulmayan xatirəsindən ibarətdir. Həyat yoldaşına olan sevgisini əbədiləşdirməyə qərar verən Cahan şah uşaq dünyaya gətirərkən həyatını itirən həyat yoldaşı Mumtaz Mahala olan duyğularını bir çox xalqın nümayəndələrindən ibarət tikinti ustalarını bir yerə cəmləşdirərək ecazkar məbədin tikilməsi ilə verdiyi qərarda sübutuna çatdı. Tarixi qaynaqlarda tikinti icraçıları İsmayıl Əfəndi, Ustad İsa, Abdul Kərim və başqalarının tikintinin konstruksiyasında verdiyi töhfələr qeyd olunur.**

Hindistanın Aqra adlı şəhərində yerləşən bu abidə Babur (Mugal) imperiyası zamanı Cahan şah tərəfindən həyat yoldaşı Mumtaz Mahalın xatirəsini əbədiləşdirmək üçün tikdirilmişdi. Tac özündə İslam, İran və Hind arxitekturasının çalarlarını əks etdirir. Tacın tikintisinə təxminən 1632-ci ildə başlanılmış və 1653 də tamamlanmışdır. Torpaq üzərində 3 acra qazılmışdı. Su səviyyəsindən 50 m yüksəklikdə yerləşən Tacın tikintisi üçün istifadə olunan materiallar Asiya və Hindistanın müxtəlif regionlarından alınmışdı. Yarımşəffaf ağ mərmər Hindistanın Racistan, tünd isə Pəncab vilayətindən, kristal Çindən gətirilmişdir. Tikintidə istifadə olunan daş-qaşlardan- firuzə Tibetdən, safir Şrilankadan və digər daşlar başqa ölkələrdən buraya cəlb olunmuşdu. Abidənin tikilmə strukturunu bütöv daşlar təşkil etdiyi halda üzəri güzgü ilə işlənilmişdi. Deyilənlərə görə burada minlərcə insan əməyindən yararlanmış hətta 1,000 fil tikinti zamanı nəqliyyat vasitəsi kimi istifadə edilmişdi. Binanın tikintisinin maliyyə dəyəri hind pulu ilə 32 mln rupi təşkil edildiyi bəzi qaynaqlarda vurğulanır.

Rəvayətlərdə deyilir ki, Cahan şah öz xanımına o qədər vurğun imiş ki, səfərlərə getdiyi zaman çox vaxt onu da özü ilə aparırmış, demək bu sənət əsəri öz özəlliyini sadəcə ölməz məhəbbət nümunəsi kimi bir obraz yaratmaqla qoruyub saxlamışdı. Hətta həyat yoldaşından kənarda olmaması üçün abidə ilə üzbəüz qara mərmərdən ibarət olan digər bir məqbərə tikdirib onları gümüş materiallı körpü ilə əlaqələndirmək niyyətində imiş, lakin bu fantastik ideya Cahan şahın ölümü ilə əlaqədar olaraq yarımçıq qalır və beləliklə Cahan şah xanımının abidəsi ilə tarixə silinməz iz salır. Bəzi əfsanələrdə Cahan şah abidəni özü üçün inşa etdirə bilməsə də lakin möcüzə olaraq ay işığında Tac Mahalın parlaq əksinin Yamuna çayının üzərinə düşərək orada qara mərmərdən tikilən eyni bir abidənin mövcudluğundan danışılır. Tac Mahalın müəyyən hava şəraitində müxtəlif görünüş funksiyasına sahib olması buranı ziyarət edən insanların hər zaman heyranlığına səbəb olub, məsələn dumanlı havada Tac Mahal sanki göy qatında duran sehirli abidə kimi görünür, günəşli havada isə onun üzərində olan qaşlar bərq vuraraq abidəni müxtəlif rəng çalarlarında olması ilə əks olunur.



Tac-Mahalın üzərində oyulmuş yazılara əsasən demək olar ki, onun tikintisi 1648-ci ildə başa çatıb. Amma salnaməçilərin yazdıqlarına görə, iş daha bir neçə il davam edib. Şah Cahan məbədin tikintisinə imperiyanın bütün ehtiyatlarını sərf edib. 20 000 fəhlə Aqra yaxınlığında xüsusi olaraq, onlar üçün tikilmiş Mümtazabad şəhərciyində yaşayırdı. Ağ mərməri tikintiyə Aqranın 320 kilometrliyindəki Makranda (Racastxan) yerləşən nadir Racputan karxanasından gətirirdilər; qumdaşı yarıqiymətli daşlar Əfqanıstandan, İrandan, Orta Asiyadan, eyni zamanda Hindistanın özündən gətirilirdi.

Möhtəşəm, bərq vuran, gözqamaşdırıcı gözəlliyi ilə, 74 metirlik hündürlüyünə rəğmən bir qu tükü qədər yüngül və zərif görünən Tac-Mahal Hindistanın və bəlkə də bütün Yer kürəsinin və hətta bütün kosmosun ən gözəl memarlıq incisidir. Onun gözəlliyinin vəsfi üçün bu sözlər kiməsə az, kiməsə çox da görünə bilər. Amma bu incinin kosmosla sirli bir bağlılığı hər halda vardı. Bunu Camna çayının sübh mənzərəsi fonunda havaya uçurmuş kimi görünən Tac-Mahal kosmosun zənginliklərinə uzanan yolun astanasında dayanmış müasir raket-qurğu kompleksinin qəribə bənzərliyi də sübut edir. Sizcə bu, sadəcə, bir təsadüfdürmü?





# "QƏDR" SURƏSİ

**«QƏDR» ÖLÇÜ, DƏYƏR DEMƏKDİR;**
**MƏKKƏDƏ NAZİL OLMUŞDUR**

***Quran hansı gecə nazil oldu?***
***Quran neçə şəkildə nazil edildi?***
***Qədr gecəsi haqqında nə bilirsiniz?***

**Surənin mətni haqqında:** Surədə oxuyuruq: «Həqiqətən, biz (Quranı) qədr gecəsi nazil etdik; Sən nə bilirsən ki, qədr gecəsi nədir? Qədr gecəsi min aydan daha üstündür; O gecə mələklər və ruh Rəbbinin izni ilə hər bir işə görə yerə enərlər; O gecə dan yeri sökülənə kimi salamatlıq, əmin-amanlıqdır.»

Surədə Quranın qədr gecəsi nazil edildiyi bəyan olunur. Bu gecə min aydan üstün sayılır.

***Qeyd etməliyik ki, Quran iki şəkildə nazil olmuşdur:***

1. Surənin 1-ci ayəsində göstərildiyi kimi, Quran əvvəlcə bütöv şəkildə nazil olmuşdur və belə bir göndəriş «inzal» adlanır. Bu mərhələdə Quran vahid ruh kimi həzrət Peyğəmbərə bütövlükdə nazil olmuşdur. Həzrətin malik olduğu bu ruh «Quran ruhu» adlanır.

2. Quran ikinci mərhələdə tədricən nazil olmuşdur və belə bir göndəriş «tənzil» adlanır. Bu mərhələdə Quranın kəlmələri, nəql olunmuş əhvalatlar müxtəlif münasibətlərdə həzrət Peyğəmbərə tədricən 23 il ərzində nazil olmuşdur. Qədr gecəsinin min aydan üstün olması onun dəyərini göstərir. Quran qədr gecəsi nazil olmuşdur. Rəvayətlərdə bildirilir ki, qədr gecəsi olunan ibadət min aylıq ibadətdən üstündür. Qədr gecəsi ilin gecələrindən biridir. Qarşıdakı ildə baş verəcək hadisələr həmin gecə müəyyənləşir. Bu gecə mübarək ramazan ayının 19, 20, 21-ci gecələrindən biridir.

Qədr gecəsi yerlə göy arasında əlaqə yaranır. Göyün qapıları yerin üzünə açılar, sanki göylə yer birləşir. Mələklər və ruh həmin gecə insana nazil olar. Əlbəttə ki, mələklərin nazil olması üçün insanın qəlbi münasib halda olmalıdır.

Həmin gecə sübhədək əmin-amanlıqdır. O gecə Allahın mərhəməti ona üz tutmuş bütün bəndələrə şamil olar. Həmin gecə şeytanların hiyləsi təsirsizləşər. Qədr gecəsi əzab qapıları bağlı, Allahın mərhəmət qapıları isə açıqdır.

1-İmam Sadiq (ə) buyurdu: Bir kəs "İnna ənzəlnahu fi ləylətil qədr" surəsini ucadan avazla oxusa, Allah yolunda qılınc vurmuş kəs kimi olar. Əgər bir kəs onu yavaş oxusa, Allah yolunda öz qanına bulaşmış mücahid kimi olar. Bir kəs bu surəni on dəfə oxusa, Allah onun əməl dəftərindən min günahını silər.

İmam Sadiq (ə) buyurdu: Bir kəs özünün vacib namazlarının birində "İnna ənzəlna" surəsini oxusa, haqq munadi nida edərək deyər ki, ey mənim bəndəm Allah sənin keçmiş günahlarını bağışladı, əməlini yenidən başla.

Ruzinin çoxalması üçün hər gün sübh namazından sonra on dəfə "İnna ənzəlna" surəsini oxusa, Allahın qüdrətini müşahidə edər. (Minhacul-arifin).

Hər kəs bu surəni oxusa, elə bil ki, mübarək ramazan ayının hamısını oruc tutmuş və Qədr gecələrini də əhya saxlamışdır.

Hər kim bu surəni evə daxil və evdən xaric olan zaman oxusa, şeytan ondan uzaqlaşıb, ona zərər yetirə bilməz.

Hər kim bu surəni əzbərləsə və onu daim oxusa, elə bil ki, bütün elmləri əzbər etmişdir.

Hər kəs bu surəni sübh namazından sonra, günorta vaxtı və əsr namazından sonra, on dəfə oxusa, əməlləri yazan mələklərdən minini otuz ilə qədər zəhmətə salar.

Hər kim dan yeri söküləndə (günəş çıxmamış) yeddi dəfə Qədr surəsini oxusa, yetmiş sıra mələklər ona yetmiş salavat göndərər və yetmiş dəfə ona rəhm edərlər.

Allah-taala min mələyi xəlq edər ki, otuz altı min il bu surəni oxuyana savab yazsınlar. Əgər belə etsə; yəni gündə yetmiş altı dəfə bu surəni oxusun. Sübh namazından qabaq yeddi dəfə, sübh namazından sonra, on dəfə günorta vaxtı nafilə namazlarını qılmazdan əvvəl on dəfə, zöhr namazının nafilələrini qılandan sonra iyirmi dəfə, əsr namazından sonra yeddi dəfə, işa namazından sonra yeddi dəfə və yatan zaman on bir dəfə oxusun.

Hər bir mömin şəxs dəstəmaz alanda bu surəni oxusa, günahları silinər anadan təzə doğulduğu gün kimi olar.

Yatan zaman Qədr surəsini on bir dəfə oxusa, Allah-taala on bir mələyi onu sübhə qədər şeytanın şərrindən qorumaq üçün göndərər.

Hər hansı hacətin qəbul olunmasına xatir hər gün bu surəni üç yüz altmış dəfə oxusa, hər bir hacəti qəbul olar. Bu surəni deyilən qədər oxusan, fəqirliyi, ehtiyaclılığı aradan qaldırmaq və rizq-ruzinin çoxalması, qüdrətli olmaq üçün təcrübə olunmuşdur.



# AŞİQLƏRİN DİLİNDƏN

**DUA:**

Dua - pərvaz edən ürəklərin nəğməsidir.
Dua - torpaqdan əflaka ucalmaqdır.
Dua - ruhun musiqisidir.
Dua - heçlikdən qırılan ney naləsidir.
Dua - danışan sükut, aşiq ruhların səssiz fəryadıdır.
Dua - ən şairanə bir kəlamdır.
Dua - agah qəlbin nidasıdır.
Dua - fəqirlik libasında olan bir eşqdir.
Dua - Ondan (Allahdan) ayrılığın fəryadıdır.
Dua - ürəklərin şəfası, ruhun baharıdır.

**NAMAZ:**

Namaz qılan şəxs eşq vilayətinin fatehidir!
Namaz - bu günün aramlığı, sabahın rahatlığıdır.
Namaz - xoşbəxtlik iksiridir.
Namaz - insanı Allah süfrəsinə qonaq edər.
Namaz - aşiqlə məşuqun ən gözəl xəlvətidir.
Namaz - behişt əhlinin tacıdır.
Namaz - qeyb mənzərəsinə açılan ən geniş pəncərədir.
Namaz - mülkdən mələkuta pərvaz edən qanaddır.
Namaz - pak ruhların ən gözəl ləzzətidir.
Namaz - behişt yolunda yaşıl çıraqdır.
Namaz - mömin qəlbin qönçəsini açan nəsim küləkdir.
Namaz - insanla Allah arasında fasiləni azaldar.

**GÖZ YAŞLARI:**

Aşiqin göz yaşları sübhün şehindən də şəffafdır.
Göz yaşları - qəlb səmasının yağışıdır.
Göz yaşları - titrək qəlbin sədasıdır.
Göz yaşları - yaralı qəlbin məlhəmidir.
Göz yaşları - aşiqin səssiz nidasıdır.
Göz yaşları - həyat verən bulaqdır.
Göz yaşları - eşqin ən gözəl izharıdır.
Göz yaşları - gözlərə zinət verən inci mirvaridir.
Göz yaşları - xəlvət gecələrin ulduzudur.
Göz yaşları - tükənməyən eşq çeşməsidir.

# İMAN

*Əli iman,Əli eymən,Əli imandur aləmdə,*
*Əli əmni,Əli sərvər,Əli məxluq üçün sərdar.*
*Əli hər şey ona məlum,Əli alim,Əli ələm,*
*Əli müdrik,Əli hakim,Əli qövlündədir muxtar.*
*Əli yavər,Əli nasir,Əli mənsur olub daim,*
*Əli qalibdür olmuşdur müzəffər bir sipəhsalar.*
*Əli munis,Əli izzət,Əli əfzəl cahan içrə,*
*Əli lütfi inayətdir,Əli ənvər,Əli ənvar.*
*Əli fateh,Əli fəttah,Əli ruhə verən rahət,*
*Əli bəhri səxavətdir,ona Rəhmanı olmuş yar.*
*Əli səfdə dayanmışdır,Əli safi,Əli sufi,*
*Əli gənci vəfa kani,Əli səftər,Əli kərrar.*
*Əli bəxşiş,Əli nemət,Əli ənam verən kəsdir,*
*Əli şiri xuda olmuş,Əlidür qatili küffar,*
*Əli əfzəldi hər kəsdən Mühəmməd ümməti içrə,*
*Əgər sən pak möminsən buna sidq ilə qıl iqrar..*

*Hafiz Şirazi*

# AZAN VAXTLARI

| Tarix | İMSAK | Sübh azanı | Günəş çıxır | Günorta azanı | Günəş batır | Məğrib azanı | Gecə yarısı |
|---|---|---|---|---|---|---|---|
| **İYUL** | | | | | | | |
| 21 | 3:47 | 4:00 | 5:44 | 13:07 | 20:30 | 20:50 | 00:25 |
| 22 | 3:49 | 4:01 | 5:45 | 13:07 | 20:29 | 20:49 | 00:26 |
| 23 | 3:50 | 4:02 | 5:46 | 13:07 | 20:28 | 20:48 | 00:26 |
| 24 | 3:52 | 4:04 | 5:46 | 13:07 | 20:28 | 20:47 | 00:26 |
| 25 | 3:53 | 4:05 | 5:47 | 13:07 | 20:27 | 20:46 | 00:26 |
| 26 | 3:55 | 4:06 | 5:48 | 13:07 | 20:26 | 20:45 | 00:26 |
| 27 | 3:56 | 4:08 | 5:49 | 13:07 | 20:25 | 20:44 | 00:27 |
| 28 | 3:58 | 4:09 | 5:50 | 13:07 | 20:24 | 20:43 | 00:27 |
| 29 | 3:59 | 4:11 | 5:51 | 13:07 | 20:23 | 20:42 | 00:27 |
| 30 | 4:01 | 4:12 | 5:52 | 13:07 | 20:22 | 20:41 | 00:27 |
| 31 | 4:02 | 4:14 | 5:53 | 13:07 | 20:21 | 20:40 | 00:27 |
| **AVQUST** | | | | | | | |
| 01 | 4:04 | 4:15 | 5:54 | 13:07 | 20:19 | 20:38 | 00:28 |
| 02 | 4:06 | 4:17 | 5:55 | 13:07 | 20:18 | 20:37 | 00:28 |
| 03 | 4:07 | 4:18 | 5:56 | 13:07 | 20:17 | 20:36 | 00:28 |
| 04 | 4:09 | 4:20 | 5:57 | 13:07 | 20:16 | 20:35 | 00:28 |
| 05 | 4:10 | 4:21 | 5:58 | 13:07 | 20:15 | 20:33 | 00:28 |
| 06 | 4:12 | 4:23 | 5:59 | 13:07 | 20:13 | 20:32 | 00:28 |
| 07 | 4:13 | 4:24 | 6:00 | 13:07 | 20:12 | 20:31 | 00:28 |
| 08 | 4:15 | 4:26 | 6:01 | 13:06 | 20:11 | 20:29 | 00:28 |
| 09 | 4:17 | 4:27 | 6 :02 | 13:06 | 20:10 | 20:28 | 00:28 |
| 10 | 4:18 | 4:29 | 6:03 | 13:06 | 20:08 | 20:27 | 00:28 |
| 11 | 4:20 | 4:30 | 6:04 | 13:06 | 20:07 | 20:25 | 00:28 |
| 12 | 4:21 | 4:32 | 6:06 | 13:06 | 20:06 | 20:24 | 00:28 |
| 13 | 4:23 | 4:33 | 6:07 | 13:06 | 20:04 | 20:22 | 00:28 |
| 14 | 4:24 | 4:35 | 6:08 | 13:05 | 20:03 | 20:21 | 00:28 |
| 15 | 4:26 | 4:36 | 6:09 | 13:05 | 20:01 | 20:20 | 00:28 |
| 16 | 4:27 | 4:37 | 6:10 | 13:05 | 20:00 | 20:18 | 00:28 |
| 17 | 4:29 | 4:39 | 6:11 | 13:05 | 19:58 | 20:17 | 00:28 |
| 18 | 4:30 | 4:40 | 6:12 | 13:05 | 19:57 | 20:15 | 00:28 |
| 19 | 4:32 | 4:42 | 6:13 | 13:04 | 19:56 | 20:14 | 00:28 |

www.iman.ge www.imanmedia.ge

*Təsisçi: " İman" mədəni maarif mərkəzi*
*Redaktor: Ramin İgidov*

*Məsul katib: Elvin Bayramov*
*Kompüter dizaynı: Nəqi Cəlilxoca*

*Ünvan: Tbilisi, Mçxeta küç.№4*

*Tel: (822) 23 39 87*

*Qəzetin səhifələrində Quran ayələri və hədislər dərc olunduğuna görə, pak yerdə saxlanmasını xahiş edirik.*